QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 161 (6361) 8 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## YAP Gənclər Birliyi "Ümumrespublika Xəmsə Festivalı"na start verib



Sentyabrın 7-də YAP Binəqədi rayon təşkilatında partiyanın Gənclər Birliyinin təşkilatçılığı ilə "Nizami Gəncəvi ili"nə həsr olunmuş "Ümumrespublika Xəmsə...

Bax 3

## Metroda COVID pasportu tələb olunur?



İctimai nəqliyyatda - avtobuslarda, metrostansiyalarda COVID-19 pasportu ilə bağlı hansısa məhdudiyyət yoxdur, sərnişinlərdən yalnız tibbi maskadan istifadə...

Bax 13

## "Covid-19"-un səbəb ola biləcəyi uzunmüddətli təsirlər nədir?



Pandemiya nə qədər uzun sürərsə, koronavirusun sağlamlığımıza verdiyi zərər də bir o qədər uzunmüddətli və əhatəli olar. "Covid-19"-a yoluxanlar xəstəliyi keçirdikdən sonra...

Bax 8

# "Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər"



Bax 2

## Samboçularımız iki qızıl medal qazandılar!



Bax 16

## Ermənistanda "döyüşə qocalar gedir..."

...Bəs, necə olmalıdır, bizlərdə buna necə deyirlər: qonşu qonşuya baxar, lazım gəlsə, lap özün oda...



Bax 14

## Qaraqışqırıq salanlar bu suallara cavab versinlər!

Niyə Azərbaycan ölkənin hərbi büdcəsini artırıb və Silahlı Qüvvələrinin şəxsi heyətinin sayının çoxaldılacağı barədə elan edib, halbuki erməni...



Bax 12



## İtaliya mətbuatı: Qarabağ, normal həyata dönməyi ləngidən minalar

İtaliyanın nüfuzlu "il Giornale" qəzetinin və həmin qəzetə bağlı "Insideover" analitik portalının jurnalisti Emanuel Pietrobonun...

Bax 4



## 8 sentyabr Jurnalistlərin Beynəlxalq Həmrəylik Günüdür

İnsanların həmrəyliyi cəmiyyətin xoşbəxliyi, firavanlığıdır. Hər hansı ideya, məslək ətrafında sıx...

Bax 9



## Erməni vandallığı: təcavüzə məruz qalmış tarixi dini-mədəni abidələrimiz

Azərbaycan öz mədəniyyəti, dini-mədəni...

Bax 15



## Məktəblər nə vaxt açılacaq?

## "Artsax"ın gorbagor olmuş statusu



Bax 11

## "Davranışlar Azərbaycanın istədiyi şəkildə olmalıdır və olacaqdır"



Bax 10

## Məşhur aktyor 24 yaşlı qızla eşq yaşayır



Bax 16

# "Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər"



## Prezident İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.**

Prezident İlham Əliyevin çıxışı

- Siz gənclər və idman naziri vəzifəsinə təyin edilirsiniz, sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız. Ölkəmizin idman ictimaiyyəti sizi yaxşı tanıyır. Siz uzun illər idman sahəsində fəaliyyət göstərirsiniz, eyni zamanda, siz Avropa Gimnastikasının prezidentisiniz. Bu vəzifəyə bir neçə il bundan əvvəl seçilmisiniz və bu, onu göstərir ki, beynəlxalq arenada da nüfuz qazanmısınız. Bu amilləri nəzərə alaraq, bu yüksək etimadı sizə göstərirəm və ümid edirəm ki, idman sahəsində, gənclər siyasəti sahəsində yaxşı nəticələr olacaq.

Bütövlükdə idman sahəsi Azərbaycanda sürətlə inkişaf edibdir və bu gün dünya miqyasında Azərbaycan idman ölkəsi kimi tanınır. Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Düzdür, Azərbaycan ictimaiyyəti bizim idman sahəsindəki qələbələrə öyrəşib və əgər biz hansısa nəticəni əldə edə bilmiriksə, əlbəttə ki, məyus olur. Ancaq hamımız bilməliyik ki, idman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə son illər ərzində idman sahəsində göstərilən nəticələr, əlbəttə, qürurvericidir. İdmançılarımız Dünya, Avropa oyunlarında, digər beynəlxalq yarışlarda bizi sevindirirlər. Son Yay Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub. Düzdür, idmançılarımız bu dəfə qızıl medal qazana bilmədilər, amma ona çox yaxın idilər. Amma yenə də deyirəm, idmanda məğlubiyyətlər də olur, qələbələr də olur. Bütövlükdə idman sahəsində əldə edilmiş nəticələr çox müsbətdir. Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən bir çox qızıl medallar qazanıblar. Əlbəttə ki, bu da çox önəmli hadisədir və biz haqlı olaraq paralimpiyaçılarımızla fəxr edirik.

Eyni zamanda, idman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır. Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olmuşdur və bütün federasiyalarda mövcud olan vəziyyət ciddi təhlil edilməlidir. Deməli, məşq prosesinə, təlim-məşq toplanışlarına xüsusi diqqət verilməlidir. Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz, bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin. Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır.

İdman sahəsində tərbiyə məsələlərinə də çox ciddi diqqət yetirmək lazımdır. Bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür.

Mən əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və bu prinsipləri gündəlik fəaliyyətinizdə rəhbər tutaraq nazirliyin fəaliyyətini təşkil edəcəksiniz. Sizi təbrik edirəm və sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

X X X

Fərid Qayıbov: Çox sağ olun, cənab Prezident. Əvvəlcə icazə verin, göstərdiyiniz bu etimada, haqqımda deyilən bu sözlərə görə Sizə dərin minnətdarlığımı bildirim. Bu, mənim üçün böyük bir şərəfdir. Verdiyiniz tapşırıqlar, tövsiyələr aydın oldu, elə dərhal bu istiqamətdə işləməyə başlayacağam. Söz verirəm ki, əlimdən gələni edəcəyəm. İnanıram ki, sağlam cəmiyyətdə yaşayan Azərbaycan gəncləri yaxın gələcəkdə də öz yeni uğurları ilə, idmançılarımız isə yeni qələbələri ilə, cənab Prezident, Sizi və Azərbaycan xalqını sevindirəcəklər. Çox sağ olun.

> "Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var"

> "Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən bir çox qızıl medallar qazanıblar. Əlbəttə ki, bu da çox önəmli hadisədir və biz haqlı olaraq paralimpiyaçılarımızla fəxr edirik"

# YAP Gənclər Birliyi "Ümumrespublika Xəmsə Festivalı"na start verib



**Sentyabrın 7-də YAP Binəqədi rayon təşkilatında partiyanın Gənclər Birliyinin təşkilatçılığı ilə "Nizami Gəncəvi ili"nə həsr olunmuş "Ümumrespublika Xəmsə Festivalı"na start verilib.**



YAP Binəqədi rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Ramiz Göyüşov dövlət başçısı İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilməsini diqqətə çatdıraraq bildirib ki, bununla bağlı paytaxt və bölgələrdə silsilə tədbirlər keçirilir, gənclərin Nizami yaradıcılığı barədə daha dolğun məlumatlar əldə etmələri üçün geniş imkanlar yaradılır.



Nizami dühasının hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olduğunu xüsusi qeyd edən R.Göyüşov vurğulayıb ki, ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli işlər görülüb. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılıb. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi ucaldılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə qeyd edilir. Dövlət başçısı İlham Əliyevin dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyini nəzərə alaraq 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsi də bunun bariz nümunəsidir.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov açıq havada keçirilən intellektual festivalın məqsədinin Azərbaycan gəncliyinin dünyagörüşünə, fərdi inkişafına töhfə vermək, onlar arasında mövcud əlaqələri inkişaf etdirmək və milli-mənəvi dəyərlərimizə, tariximizə bağlı vətəndaş kimi formalaşmalarına dəstək vermək olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanın bütün regionlarını əhatə edəcək festivalda ümumilikdə 420 gənc iştirak edəcək. Yeni Azərbaycan Partiyasına üzv və bitərəf gənclərdən formalaşdırılmış 84 komanda festival çərçivəsində 9 regional turda mübarizə aparacaq.



B.İslamov, eyni zamanda, belə səpgili tədbirlərin Azərbaycan gəncliyinin tariximiz, ədəbiyyatımız, milli-mənəvi dəyərlərimiz barədə zəngin biliklər əldə etmələrində əhəmiyyətindən danışıb. Sonra dahi Azərbaycan şairinin bəşəriyyətə bəxş etdiyi "Xəmsə" əsasında intellektual yarışmalara start verilib.

Sentyabr ayı ərzində davam edəcək layihənin finalının dahi şair Nizami Gəncəvinin ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaratdığı nəzərə alınaraq Gəncə şəhərində keçirilməsi nəzərdə tutulub.



# "Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş siyasi partiyadır"

## YAP Xaçmaz rayon təşkilatının X hesabat konfransı keçirilib

**Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Gündəlik təsdiq edildikdən sonra YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev hesabat məruzəsi ilə çıxış edib. Məruzədə bildirilib ki, Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, müstəqil Azərbaycanımızın firavan gələcəyi naminə fəaliyyət göstərən siyasi partiyadır. Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı, ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır.





Qeyd olunub ki, YAP Xaçmaz rayon təşkilatı hesabat dövrü ərzində tədbirlər planına uyğun olaraq, YAP Mərkəzi Aparatının tapşırıq və tövsiyələrini rəhbər tutaraq fəaliyyət göstərib, rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. YAP Xaçmaz rayon təşkilatı 124 ərazi ilk təşkilatında 9300 partiya üzvünü öz sıralarında birləşdirir. Onlardan 4323 nəfəri qadınlar, 3436 nəfəri isə gənclərdir.







Sonra YAP Xaçmaz rayon təşkilatı Nəzarət Təftiş Qrupunun sədri Fərhad Şeydayevin hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev, Milli Məclisin deputatı Sevil Mikayılova, YAP Xaçmaz rayon təşkilatının sədr müavini, Qadınlar şurasının sədri Sevinc Sədullayeva, Susay ərazi ilk partiya təşkilatının sədri Amil Rəhimov və İkinci Qarabağ müharibəsi veteranı Vüqar Fərzəliyev çıxış edərək YAP Xaçmaz rayon təşkilatının fəaliyyətinə münasibətlərini bildiriblər.



Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ötən illər ərzində böyük inkişaf yolu keçdiyini bildirib. O qeyd edib ki, partiyamız möhtəşəm uğurlara imza atıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilib.



Onun sözlərinə görə, YAP daim yenilikçi siyasət həyata keçirən partiyadır və bu baxımdan partiyanın VII Qurultayında mühüm qərarlar qəbul olunub. Ə.Tağıyev yeni mərhələdə partiyanın yerli təşkilatlarının üzərinə düşən vəzifələrdən də ətraflı şəkildə bəhs edib, YAP Xaçmaz rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.



Qeyd edək ki, YAP Xaçmaz rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# “Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq”



“Şuşanın baş planı təsdiq edildi və çox müfəssəl, gözəl işlənmiş plandır. Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur - üç, dörd və beş mərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar”. Bu barədə Prezident İlham Əliyev Şuşada Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışında bildirib. Dövlətimizin başçısı deyib: “Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik”.

Prezident çıxışında təxminən 40 il bundan əvvəl baş verənləri xatırladıb. “Bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

### “Bu gün bu əraziləri bərpa etməklə biz tarixi ədaləti bərpa edirik”

“Biz azad edilmiş torpaqlara müntəzəm olaraq xarici qonaqları gətiririk. Jurnalistləri, siyasətçiləri, ictimai xadimləri ki, görsünlər və bilsinlər ki, biz təkcə özümüzü işğaldan azad etməmişik, biz bölgəni erməni faşizmindən azad etmişik. Bu gün bu əraziləri bərpa edərək biz tarixi ədaləti bərpa edirik”. Prezident İlham Əliyev çıxışlarında, müsahibələrində, görüşlərində dəfələrlə vurğulayıb ki, biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik. Və tarixi ədaləti bərpa etməklə Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və işğaldan azad olunan torpaqlarımız yenidən nəfəs almağa başlayıb.

Bəli, tarixi ədaləti Qalib Liderimizin uğurlu “Dəmir yumruq” siyasəti ilə biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Dövlət başçımızın dediyi kimi: “Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq”.

Bəli, bu Qalib Liderimizin “dəmir yumruq” siyasəti ilə ədaləti bərpa etməsi nəticəsində işğal altında olan torpaqlarımızı azad edərək həmin torpaqlarda bərpa-quruculuq işləri aparılır, həmin torpaqlarımız yeni nəfəs almağa başlayıb.

Prezident İlham Əliyev avqustun 30-da Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunan Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı deyib: “Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, Şuşanı biz dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik.

### Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!”

Bəli, dövlət başçımızın dediyi kimi tarix təkrarlanır: “Mənfur düşmən həmin yerdə dırnaqarası “Dağlıq Qarabağ respublikası”nın qondarma parlamenti üçün bina inşa edirdi. O da bizə sataşmaq idi. “Dağlıq Qarabağ respublikası” anlayışı yoxdur. Artıq o binanın bünövrəsi qoyulmuşdu və daş işləri artıq tamamlanmışdı. Mənim göstərişimlə bu şeytan yuvası darmadağın edildi. Beşulduzlu otel gözəl yerdə inşa ediləcək”.

Bəli, bu gün fəxrlə deyə bilərik ki, illər ərzində görülmüş işlər öz müsbət nəticəsini göstərir. Böyük quruculuq işlərinə start verilib. Müharibədən cəmi 8-9 ay keçməsinə baxmayaraq, böyük işlər görülüb. Əgər bizdə bu hazırlıq olmasaydı, biz bunu edə bilməzdik. Bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır.

Bir sözlə, 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının öz rəhbərinin və ordusunun yanında olması, bir yumruq kimi birləşməsi bunu bir daha sübut etdi.

**RƏFİQƏ KAMALQIZI**



# İtaliya mətbuatı: Qarabağ, normal həyata dönməyi ləngidən minalar

**İtaliyanın nüfuzlu “il Giornale” qəzetinin və həmin qəzetə bağlı “Insideover” analitik portalının jurnalisti Emanuel Pietrobonun ölkəmizə səfəri ilə bağlı silsilə yazıları davam edir. Bu xüsusda, növbəti məqalə kimi müəllifin “Qarabağ, normal həyata dönməyi ləngidən minalar” sərlövhəli məqaləsi işıq üzü görüb.**

AZƏRTAC xəbər verir ki, müharibənin rəsmi olaraq noyabrın 9-da son çatmasına baxmayaraq, Cənubi Qafqazın açıq damarında müharibədən sonrakı problemlərin qalmaqda olduğunu deyən müəllif müharibədən qalib çıxmış və regionun lider dövləti olan Azərbaycanda Gəncənin bombalanmasının qoyduğu izlərlə yanaşı, azad edilmiş ərazilərin minalardan təmizlənəsi, bərpası və yenidən qurulması kimi məqsədlərin olduğunu qeyd edib.

E.Pietrobon müharibənin bitməsinə baxmayaraq, minaların partlaması səbəbindən Qarabağda insanların hələ də həlak olduğunu deyir və diqqəti həyatını itirmiş çoxsaylı hərbçilərin, mülki vətəndaşların və jurnalistlərin sayına çəkib. O bildirir ki, Azərbaycanın öz suverenliyini bərpa etdiyi ərazilərdə ermənilər tərəfindən 1990-cı illərdən etibarən basdırılması və onların xəritəsinin təqdim edilməməsi səbəbindən həddən artıq sayda insan həyatını itirir. Bu xüsusda müəllif Ağdam, Füzuli və Zəngilanda basdırılmış minaların sayı barədə məlumat verərək onların çox bir hissəsinin Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən zərərsizləşdirildiyini və bu istiqamətdə işlərin davam etdirildiyini diqqətə çatdırır.



“Minalara diqqət” lövhəsinin işğaldan azad edilmiş ərazilərdə tez-tez rast gəlindiyini bildirən müəllif qeyd edir ki, bu ərazilərdə istər hərbçilər, istərsə də mülki vətəndaşlar ehtiyatlı davranmalıdırlar, çünki hər atılan addım son addım ola bilər. O bildirir ki, yenidən canlandırılan Füzuli və Şuşadan keçərkən ruhlar şəhəri Ağdamdan açıq məzarlıq Cəbrayıla qədər hər yerdə ingilis və Azərbaycan dillərində xəbərdarlıq lövhələri yerləşdirilib. Müəllif Qarabağın postsovet məkanında ən yüksək mina sıxlığına malik olduğunu, hətta planetdə ən çox minalanmış ərazilərdən biri olduğunu vurğulayır.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərində basdırılmış minaların dəqiq sayının bəlli olmadığını bildirən E.Pietrobon mövcud problemin ağırlığını faktlar və rəqəmlərlə göstərir, bu xüsusda, səfərdə olduğu Füzuli rayonunda hər 1 metr ərazidə birdən çox minanın basdırıldığını diqqətə çatdırır.

Sonda müəllif qeyd olunanlara rəğmən cəsur ANAMA heyəti sayəsində ərazilərin təmizlənməsi istiqamətində işlərin aparıldığını və Azərbaycan ərazilərinin getdikcə canlandırıldığını bildirir.

# Qələbələr partiyası olan YAP zəngin və şərəfli inkişaf yoluna malikdir!

## YAP Şabran rayon təşkilatının IX hesabat konfransı keçirilib

**Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası Şabran rayon təşkilatının videoformatda IX hesabat konfransı keçirilib. Əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**




Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyovun hesabat məruzəsi dinlənilib. Bildirib ki, bu gün YAP Azərbaycan cəmiyyətinin həm siyasi, həm iqtisadi, həm sosial, həm də mədəni həyatında uğurlu layihələrlə, həmçinin, ölkəmizin ictimai-siyasi həyatında həlledici rol oynayır. Qələbələr partiyası olan YAP zəngin və şərəfli inkişaf yoluna malikdir.







M.Balabəyov qeyd edib ki, hazırda YAP Şabran rayon təşkilatı 76 ərazi ilk partiya təşkilatında 5704 üzvü birləşdirir. Onların 2877 nəfəri qadınlar, 2347 nəfəri isə gənclərdir.

Sonra YAP Şabran rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Əmircan Ocaqov hesabat məruzəsi ilə çıxış edib.









Müzakirələr zamanı çıxış edən YAP Şabran rayon təşkilatının sədr müavini Füzuli Hüseynov, rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Turan İsgəndərova, Rayon Gənclər və İdman İdarəsinin rəisi Süleyman Əlimәmmədov, partiya üzvü Xalidə Əliyeva hesabat dövründə görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyası yeniliyə, təkmilləşməyə xüsusi önəm verərək, fəaliyyətini dövrün, zamanın tələblərinə uyğun qurur, yeni reallıqların qarşıya qoyduğu vəzifələri uğurla həyata keçirmək üçün bütün qüvvə və səylərini səfərbər edir. Partiyanın VII Qurultayı tarixi Zəfərimizdən sonrakı dövrə təsadüf etdiyi üçün yeni hədəflərə uyğun qəbul edilən qərarlar istər ölkəmizin, istərsə də partiyamızın həyatında olduqca əhəmiyyətlidir. Azərbaycanın həyatında yeni mərhələ başlayıb. Ərazi bütövlüyümüzün bərpa olunması, tarixi torpaqlarımızın öz sahibinə qaytarılması qürurverici olmaqla yanaşı, daha böyük işlərə, qələbəmizin nəticələrini möhkəmləndirməyə çağırış edir”.

Dünyaya səs salan, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını qürurlandıran Zəfərimizin yaratdığı reallıqların gerçəkləşməsində Yeni Azərbaycan Partiyasının rolundan bəhs edən Ə.Tağıyev YAP Şabran rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Şabran rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Misir nəşri Laçında keçirilən Azərbaycan-Türkiyə birgə təlimindən yazıb

**Misirin nüfuzlu “Əl Masr Əl Yom” nəşrində Laçın rayonunda keçirilən Azərbaycan-Türkiyə birgə təlimi haqqında xəbər dərc edilib.**



AZƏRTAC-a istinadla dərc olunmuş xəbərdə bildirilib ki, işğaldan azad edilmiş Laçın rayonu ərazisində birgə döyüş atışlı taktiki təlim Azərbaycan və Türkiyə arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən keçirilir.

Yazıda diqqətə çatdırılıb ki, Azərbaycan Müdafiə Nazirliyi Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən təlimdə əsas məqsədin döyüş əməliyyatlarının aparılması zamanı qarşılıqlı fəaliyyətin və döyüş uzlaşmasının təkmilləşdirilməsi, o cümlədən komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsi olduğunu, təlimdə müasir döyüş texnikası və digər hərbi vasitələrin çətin relyef şəraitində istifadə etmə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirildiyini bildirib.

# Keçmiş Məcburi köçkünlərin arzusu

Otuz ildən artıq müddətdə yer üzünə şeytan qanından səpələnmiş erməni deyilən məxluqun məkrinin zülmünü çəkən, bunun 27-28 ilini məcburi köçkün kimi sıxıntılı həyat yaşamaq zorunda qalan insanların bir ildir ki, üzləri gülməyə başlayıb. Azərbaycanın qəhraman oğulları, müzəffər ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və fenomenal siyasi iradəsi nəticəsində yurdunun azadlığına şahidlik etdi. Az qala bir ildir ki, hər kəs ömrünün bundan sonrakı hissəsini ata-baba torpaqlarında, doğma yurdunda yaşamaq, burda dünyasını başa vurmaq, ulularının uyuduğu məzarlıqlarda ulular ilə yanaşı dəfn olunmaq qismət olduğuna görə həm ordumuza, həm Ali Baş Komandana minnətdarlıq, allahına isə şükranlıq hissləri ilə yaşayır. Bir ilə yaxındır ki, hər bir məcburi köçkün özünü, sanki yenidən doğulmuş kimi hiss edir, gələcəyə yeni duyğularla, inam və ümid dolu düşüncələrlə baxmağa başlayıb.

Minaların yaratdığı təhlükə nədəni ilə, haqlı olaraq hələ bu yerlərə insanların, ürəkləri Vətən, yurd eşqilə döyünən keçmiş məcburi köçkünlərin el-obalarına sərbəst gediş-gəlişinə məhduduyyət qoyulub. Bununla belə, dövlət qurumlarının təşkilatçılığı ilə müxtəlif sahələrdə çalışan insanlar dəstə-dəstə bu torpaqlara gedir, ordakı vəziyyəti gözləri ilə görür, gələcək planlarla, artıq başlayan və uğurla davam edən yenidənqurma, tikinti-abadlıq işləri ilə yaxından tanış olurlar. Xüsusi vurğulamağı vacib hesab edirəm ki, işğal ərəfəsində mövcud olmuş təmas xəttini keçdikdə düşmənin qurduğu altı xətdən ibarət istehkam zonasını görən hər kəs ordumuzun nə qədər ağır şəraitdə bu torpaqları azad etməsinin şahidi olur və belə bir ordu ilə daxilində qürur hissi keçirir.

Bununla yanaşı, torpaqlarımız işğaldan azad olduqdan sonra keçmiş məcburi köçkünlərlə apardığımız söhbətlər, sorğular nəticəsində məlum olur ki, indiki halda hər bir məcburi köçkünün dərhal bu yurdlara qaytarılmasının mümkünsüz olduğunu birmənalı qəbul edir və anlayışla qarşılayır. Düşmənin daşı daş üstdə qoymadığı, xarabazara çevirdiyi bu torpaqlarda insanların yaşaması üçün normal şəraitin yaradılması və onların doğma yurdlarına geri qaytarılması illər, bəlkə də on illər davam edən bir prosesdir. Bütün kommunikasiyaların yenidən qurulması, zəruri yaşayış minimumlarının bərqərar edilməsi, idarə, müəssisələrin yerləşdirilməsi, yaşayış mənzillərinin tikilməsi və digər görülməsi zəruri olan işləri nəzərə alsaq, bunun nə qədər çətin və gərgin bir proses olduğunu anlamamaq mümkün deyil. Ancaq keçmiş məcburi köçkünlərlə görüşlərimiz zamanı əksər insanların, xüsusən yaşlı nəslin nümayəndələrinin qaldırdıqları bir məsələni, düşünürük ki, tez bir zamanda həll etmək və onların bu arzularını reallaşdırmaq mümkündür. Belə ki, otuz ilə yaxın məcburi köçkünlük həyatı yaşamış bu insanlar azad olunmuş yurd yerlərindəki məzarlıqların tezliklə təhlükəsizliyinin təmin edilməsi, bundan sonra həmin yurd yerlərindən olanlar dünyasını dəyişdikdə, ata-baba məzarlıqlarında, ata-babaları ilə yanaşı dəfn olunmaları üçün imkan yaradılmasını arzu edirlər. Bizlər bu istəyi dəstəkləyir və hesab edirik ki, xüsusilə iki baxımdan bu problemin müsbət həlli vacib hesab edilməlidir. Birincisi, uzun həsrətdən sonra onlara qismət olan doğma yurdda dəfn olunmaq arzularını gerçəkləşdirməklə həm onların ruhlarını şad edir, həm də bu yerlərin yenidən VƏTƏNə çevrilməsinə əsaslı stimul vermiş olarıq. İkincisi, gələcək nəsillərin bu yerlərə yenidən bağlanması, bu torpaqları müqəddəs yurd yerləri kimi unutmaması, ən azı ata-babalarının uyuduğu müqəddəs torpaqlar kimi daim qorumaq əzminin gücləndirilməsi baxımından da bu istəyin həyata keçirilməsi ciddi əhəmiyyət daşıyır.



Bu mühüm əhəmiyyət kəsb edən məsələni gündəmə gətirməkdə məqsədim isə, müvafiq dövlət və hakimiyyət yetkililərinin diqqətini onun üzərinə cəlb etməkdən və həlli o qədər də müşkül olmayan bu problemin tezliklə həll olunmasına nail olmaqdan ibarətdir. Əminəm ki, uyğun qurumlar həm bu günümüz, həm də gələcəyimiz üçün əhəmiyyət kəsb edən və xalqın, xüsusən də keçmiş məcburi köçkünlərinin arzusu olan bu problemi tezliklə həll etmək üçün təxirəsalınmaz tədbirlər həyata keçirəcəklər. İndiki Azərbaycan iqtidarının, ölkə başçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqın istək və arzularına yönəlik siyasi xəttinin hər gün şahidi olan xalq buna inanır!

***Təhmasib Novruzov***

# Antimilli ünsürlər tarixin səhifələrində qınaq və ittiham obyekti olmağı özlərinə şərəf hesab edirlər

## Milli Məclisin deputatı Məlahət İbrahimqızının yap.org.az-a müsahibəsi

***- Məlahət xanım, Azərbaycan müstəqil siyasəti, dünyaya nümunə olan inkişaf modeli ilə daim diqqətdədir. Tarixi Zəfərimiz ədaləti bərpa etməklə yanaşı, ölkəmizlə bağlı daha hansı reallıqlara işıq saldı?***

- Fəxr hissi ilə deməliyik ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman Milli Ordumuzun 30 il işğal altında olan torpaqlarımızı azad etməsi beynəlxalq aləmdə, eləcə də dünya mətbuatında müzakirə olunmaqdadır. Ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən İkinci Qarabağ savaşı Azərbaycan xalqına və milli dövlətçilik tariximizə başucalığı, şərəf gətirməklə bərabər, bölgəmiz, dünya, xüsusilə də torpaqları işğal altında olan bir sıra yaxın və uzaq ölkələr üçün əvəzolunmaz stimul olaraq böyük siyasi, hüquqi, iqtisadi, etnokultural, tarixi və mənəvi əhəmiyyətə malikdir. Azərbaycan xalqının qazandığı bu Zəfərlə bölgənin taleyində yeni bir mərhələ və yeni reallıqlar yarandı. Azərbaycan bölgənin əsas söz sahibinə çevrildi. Bütün beynəlxalq norma və prinsiplər çərçivəsində aparılmış bu müharibə taktika və strategiyasına, metod və qaydalarına, eləcə də istifadə edilmiş müasir hərbi texnologiyalara görə artıq bir sıra, hətta inkişaf etmiş ölkələrin hərbi təhsil proqramına daxil edilmişdir. Bu mənada dünya hərb tarixinə verdiyi töhfəsi baxımından xalqımızın haqq və ədalət uğrunda apardığı Qurtuluş savaşı və qazanılan Qələbə haqqında uzun illər danışılacaq və tədqiqatlar aparılacaq. XXI əsrin üçüncü onilliyində aparılan bu müharibə iki tərəf arasında baş vermirdi. İki yüz ildən çox tarixi olan bu münaqişənin bir tərəfi təcavüzkar Ermənistan və onu dəstəkləyən dünyanın ermənipərəst qüvvələri, bəzi riyakar mövqedə olan beynəlxalq təşkilatlar idisə, o biri tərəfdə ərazisi zaman-zaman işğal olunmuş Azərbaycan dövləti və xalqı idi. Şəhidlərimizin qanı ilə yazılan bu möhtəşəm Zəfər dövlətimizin gücünü, xalqımızın və onun Liderinin qətiyyətini, məğlubedilməzliyini bir daha bütün dünyaya sübut etdi. Qeyd etmək lazımdır ki, Vətən müharibəsi zamanı sosial və siyasi mənsubiyyətindən, yaşından, cinsindən asılı olmayaraq bütün xalqımız bir yumruq kimi öz Liderinin, Milli Ordusunun arxasında dayandı. Ölkəmizdə fəaliyyət göstərən bütün qeyri-hökumət təşkilatları, eləcə də siyasi partiyaların mütləq əksəriyyəti möhtərəm Prezidentimiz cənab İlham Əliyevin, Milli Ordumuzun arxasında dayanaraq, həmrəylik və milli birlik nümayiş etdirdilər. Bu Zəfər bir daha sübut etdi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezidentimiz tərəfindən uğurla davam etdirilən siyasətin alternativi yoxdur. Bu yol təkcə Azərbaycan deyil, bütövlükdə bölgə xalqlarını işıqlı gələcəyə aparan yoldur. Bu mənada ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar tərəfindən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin dəstəklənməsi təqdir olunmalıdır.

***- Təəssüflər olsun ki, bəzi psevdosiyasətçilər hələ də populist, hətta böhtan və şər xarakterli, mənasız çıxışları ilə cəmiyyətdə katalizatorluqla məşğuldurlar. Buna münasibətinizi bilmək istərdik...***



- Bir qrup hələ də dünyada, eləcə də bölgədə baş verən qlobal geosiyasi prosesləri başa düşmür və ya başa düşmək iqtidarında deyil. Ataların bu deyimini yada salmaq istərdim: "boş qazan daha çox səs çıxarar." Son vaxtlar siyasi kursunun əsas istiqamətini dediqodu, qeybət, böhtan hesab edən, həyacanlı və paradoksal çıxışları ilə özünə siyasətçi imici formalaşdırmağa çalışanlardan biri də Vətəndaş və İnkişafı Partiyası, onun sədridir. Gülünc doğuran məqamlardan biri də odur ki, dünyanın ən nüfuzlu ölkələrinin, eləcə də beynəlxalq təşkilatların istər Azərbaycan xalqının İkinci Qarabağ savaşında göstərdiyi rəşadət və şücaətdən, istərsə də bəşəriyyətin üzbəüz qaldığı COVİD-19-la mübarizə sahəsində əldə etdiyi uğurları təqdir və təbliğ etdikləri halda bu psevdosiyasətçilər böhtan və şər kampaniyası ilə məşğuldur. Sözsüz ki, bu qəbildən olan ünsürlər anlamırlar ki, Azərbaycan xalqı öz taleyini bu cür "siyasətçilərə" etibar etməz. Ötən dövrün təcrübəsi göstərir ki, Azərbaycan uğurlara imza atdıqca, bu uğurlara istər xaricdə, istərsə də daxildə qısqanclıqla yanaşan, ölkəmizin inkişafına, qələbələrinə sevinməyən qüvvələr fəallaşmağa çalışır. Əslində bu qüvvələr üçün Azərbaycanın uğurları və ya inkişafı önəmli deyil. Onların missiyası iqtidarın hər bir yaxşı işinə qara eynəkdən baxmaqdır. Onlar dərk etmirlər ki, erməni faşizmi üzərində Qələbəmiz nə qədər möhtəşəm və əzəmətlidirsə, ondan sonrakı mərhələ, azad olunan torpaqlarımızda çox qısa müddətdə həyata keçirilən misli görünməmiş bərpa və quruculuq işləri miqyasına görə heç də müharibədə əldə edilən Zəfərdən az əhəmiyyət kəsb etmir. Mübaliğəsiz deyə bilərik ki, Azərbaycan xalqı hər ötən gün böyük və tarixi uğurlara imza atır. Bu gün hər kəs möhtərəm Prezidentimiz İlham Əliyevin 44 günlük Vətən savaşında əldə edilən Qələbənin möhkəmləndiirlməsi və tezliklə Böyük Qayıdışa nail olunması, bərpa-quruculuq sahəsində, yaşayış komplekslərinin inşası, infrastruktur layihələrinin həyata keçirilməsi, ərazilərin minalardan təmizlənməsi, diplomatiya, sərhədlərin delimitasiyası və demarkasiyası, beynəlxalq informasiya məkanında Azərbaycanın haqq işinə qarşı yönələn çirkin oyunların ifşa olunması istiqamətində yorulmadan çoxşaxəli fəaliyyət göstərdiyinin şahididir. Bununla bərabər möhtərəm Prezidentimizin bilavasitə rəhbərliyi ilə ölkəmizdə COVİD-19 pandemiyası ilə uğurlu mübarizə aparılır. Qürurla deməliyik ki, Vətən torpaqlarının azad olunması yolunda 3000-ə yaxın şəhid və 3000 yaxın qazi, eləcə də hərbçi və əsgər ailələrinin sosial problemlərinin həlli istiqamətində görülmüş, həmçinin görülən işlər həqiqi mənada dövlətimizin gücünü bir daha sübut edir. Bütün bu mənzərəni seyr və görülən işləri zamanla müqayisə etdikcə ölkəmizdə sanki möcüzələrin baş verdiyi qənaətinə gəlirsən.

***- Məlahət xanım, Azərbaycanın əldə etdiyi Qələbə və uğurla həyata keçirdiyi bərpa-quruculuq işləri erməniləri və onlara havadarlıq edən xarici gücləri narahat edir. Onların ölkəmizdəki əlaltılarının bu narahatlığa dəstəklərini necə şərh edərdiniz?***

- Son günlərdə anti-Azərbaycan qüvvələrin yenidən daxildəki əlaltılarından alət kimi istifadə edərək, görülən bu əzəmətli işlərin əhəmiyyətini gözdən salmaq istiqamətində fəaliyyətləri müşahidə olunmaqdadır. Dünyada gedən qlobal maliyyə-iqtisadi çətinliklər və pandemiya fonunda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət, ölkənin və bölgənin gələcək dayanıqlı inkişafı, işğaldan azad edilən ərazilərdə çox sürətlə nəhəng işlərin görülməsi nəinki bu antimilli qüvvələri təəccübləndirir və ya narahat edir, hətta gözləri götürmür. Onlar üçün ancaq xaos və anarxiya lazımdır. Bu gün Qarabağın, işğaldan azad edilmiş bütün ərazilərimizin dirçəlişi üçün ən yüksək standartlarla inkişaf planı və proqram hazırlanmış, həyata keçirilməyə başlanmışdır. Füzuli rayonunda Beynəlxalq Hava Limanının qısa zamanda inşası və yaxın vaxtlarda istifadəyə verilməsi, işğaldan azad olunmuş bütün ərazilərdə elektrik stansiyalarının qurulması, nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi, mədəniyyət paytaxtı Şuşanın dirçəldilməsi istiqamətində misilsiz işlərin görülməsi sözün həqiqi mənasında möcüzədir.

Bu bir gerçəklikdir ki, Vətən müharibəmizin hərb mərhələsi bitsə də, beynəlxalq aləmdə və mediada erməni faşizminin ifşası məqsədilə informasiya mübarizəmiz davam edir. Bu mənada Şuşada möhtərəm cənab Prezidentimizin rəhbərliyi və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri ənənəsinin bərpası Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mədəniyyət diplomatiyası sahəsində növbəti uğurudur. Əlbəttə, bütün bu görülmüş işlərin hər biri dünyaya Qarabağ torpaqlarının əsl sahiblərinin kim olması ilə bağlı verilmiş çox önəmli diplomatik mesajlardır. Bu mesajlarla bir daha bu torpaqların əzəli və əbədi sahiblərinin Azərbaycan xalqı olduğu sübut olundu. Bu gün 44 günlük Vətən müharibəsində əldə edilən Qələbənin beynəlxalq səviyyədə möhkəmləndirilməsi istiqamətində çox ciddi diplomatik addımlar atılıb və bu istiqamətdə işlər davam edir. Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik Bəyannaməsi Şuşada imzalandı. Bu sənəd iki qardaş ölkə arasındakı sarsılmaz müttəfiqliyi, dostluğu və qardaşlığı əbədi etdi. Azərbaycanın üçtərəfli formatda- Azərbaycan-Türkiyə-Pakistan əlaqələrinin yüksək səviyyəyə inkişaf etdirilməsi istiqamətində məqsədyönlü və uğurlu addımları daha da genişlənir. Bu ilin iyul ayında Bakıda hər üç ölkənin parlament rəhbərləri səviyyəsində tarixi görüş keçirildi və birgə Bakı Bəyannaməsi imzalandı. Səfər çərçivəsində Azərbaycan, Türkiyə və Pakistan parlament sədrləri Şuşaya birgə səfər etdilər. Erməni faşizminin dünyada ifşası məqsədilə davamlı olaraq xarici ölkələrin və beynəlxalq təşkilatların ölkəmizdəki diplomatik missiyalarının nümayəndələrinin, müxtəlif dini icmaların təmsilçilərinin, xarici jurnalistlərin, hüquq müdafiəçilərinin, diaspor nümyəndələrinin işğaldan azad olunan bölgələrə səfərləri təşkil edilir. Bütün bu görülmüş və görülən işləri möhtərəm Prezidentimizin dəfələrlə səsləndirdiyi "bizim rəqibimiz vaxtdır" müdrik kəlamı baxımından dəyərləndirsək, işğaldan azad edilmiş ərazilərimizdə, sözün həqiqi mənasında cənnət yaradılır desək, yanılmarıq. Təsəvvür edin ki, keçən ilin bu günlərində Tovuz hərbi təxribatının ağrı-acısını yaşayırdıq, Keçən il bu zamanlarda təcavüzkar dövlətin Baş naziri Şuşada Cıdır düzündə Azərbaycan xalqının qədim rəqsi olan Zəngəzur yallısını oynayırdı. Bugün isə Şuşada ali qonaqlar qəbul edilir, mötəbər tədbirlər təşkil olunur. Bu gün Qarabağın hər bir yerində Azərbaycan və Türkiyənin bayraqları qoşa dalğalanır.

Bu gün Azərbaycanın möcüzələr yaratması barədə nəinki dünya mediasında, beynəlxalq təşkilatlarda deyilir, hətta erməni mətbuatı, siyasətçiləri etiraf edirlər. Sözsüz ki, məğlubiyyətlərini hələ də qəbul edə bilməyən düşmənlərimiz xislətlərinə uyğun olaraq təxribat törətməyə cəhd edirlər. Bu günlərdə dəmir yumruğu unudaraq Xankəndində erməni quldurlarının və revanşist qüvvələrinin fiaskoya uğramış tədbirləri də məhz növbəti təxribat cəhdi idi. Çox təəssüflər olsun ki, xarici və erməni mətbuatında Xankəndində fiaskoya uğramış bu tədbir haqqında geniş məlumat verilsə də, eləcə də 30 il ərzində ilk dəfə olaraq təcavüzkar Ermənistanın yüksək rəsmilərinin bu tədbirə qatılmadıqları bildirilsə də Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev şər və yalan fikirlər səsləndirir.

***- Siyasətdə olub, amma bu anlayışın mənasını belə dərk etməyən Əli Əliyev kimilərin hakimiyyətə gəlmək sevdasına düşməsini necə cavablandırardınız?***

- Vətəndaş və İnkişafı Partiyasının sədri kimi düşünən qüvvələr çox gözəl dərk edirlər ki, onlar heç vaxt hakimiyyətə gələ bilməyəcəklər. Görünür, bu qüvvələr konstruktiv əməkdaşlıq deyil, qaraguruhçu yolu daha üstün tuturlar. "Alətçik"lərə və ya "psevdosiyasətçi"lərə çevrilmiş bu siyasət alverçilərinin fikirlərinə diqqət yetirəndə bir daha onların milli maraqlardan çox uzaq olduqlarının şahidi olursan. Dünyada baş verən təhlükələrdən bixəbər olan bu qüvvələrin siyasi leksikonları ancaq dedi-qodu, qeybət, şər, böhtan, paradoksal fikirlərdən ibarətdir. Bu qüvvələr hələ də anlamaq istəmirlər ki, bugünku qlobal siyasi proseslər fonunda siyasət, diplomatiya taftaloğiya və ya tamadalıq peşəsi deyil, elmdir. Bəzən sükut diplomatiyası ən böyük uğur qazandırır. Diplomatiyadan çox uzaq olan bu qüvvələr üçün əsas fəaliyyət qarayaxma diplomatiyasıdır. Danışıqlarında heç bir məntiqi ardıcıllıq olmayan, absurd fikirlərdən istifadə edərək "babam mənə kor deyib, hər yetəni vur deyib" prinsipinə arxalanan qüvvələr özləri haqqında çox böyük iddiadadırlar. Əslində gündəmdə olmaq üçün lazımsız çıxışları, şər yanaşmaları ilə özlərini daha da ifşa edirlər. Ətrafına 3-5 nəfəri toplaya bilməyən VİP sədrinin bir neçə gün öncə ölkəmizə qarşı qərəzli mövqeyi dediklərimizin bariz nümunəsidir. Hər kəsin fəqrli düşüncəsi və məsələlərə fərqli baxışı ola bilər. Təcrübəsiz və qeyri-peşəkar siyasətçi olmaq ayıb deyil .Təcrübə və peşəkarlıq üçün siyasət müəyyən zaman tələb edir. Bu təbiidir. Amma bir siyasi partiyanın təməl prinsipi böhtan, şər, qərəz olarsa, o həm cəmiyyət, həm də onun özü üçün çox təhlükədir.

Yeni Azərbaycan Partiyası bütün partiyalara konstruktiv əməkdaşlıq üçün xoş niyyətlə əl uzatdı. Əlliyə yaxın siyasi partiya bugün ümummilli maraqlar naminə bu əməkdaşlığı davam etdirir. Çox təəssüf ki, VİP və onun kimi bir qrup qüvvələri milli yox, cılız, bəsit və qərəzli maraqlar maraqlandırır. Bu qüvvələr Azərbaycan xalqı və dövləti qarşısında xəyal kimi görünən məsələlərin möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həll edildiyini, xalqın onun ətrafında daha sıx birləşərək "İlhamla İrəli" çağırışını eşitdikcə ölkəmizin ictimai-siyasi həyatında onlara yer olmadığını çox gözəl dərk edirlər. Ataların bu deyimini xatırlatmaq istərdim: "suda boğulan saman çöpündən yapışar". Vətəndaş və İnkişaf Partiyasının sədri və onun kimi düşünənlər yaxşı anlayır ki, möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Azərbaycan hələ daha çox uğurlara imza atacaq, dünyanın ən nüfuzlu ölkələrindən birinə çevriləcək. Qarabağ və Şərqi Zəngəzur cənnətə çevriləcək. İllər keçəcək və gələcək nəsillər tərəfindən tariximizin bu şərəfli səhifələri vərəqləndikcə Vətən müharibəsinin qəhrəmanları minnətdarlıqla yad ediləcəklər. Görünür, daim cəmiyyətdə təxribat, dedi-qodu yaradan bu qüvvələr yaddaşlarda, tarixin səhifələrində qınaq və ittiham obyekti olmağı özlərinə şərəf hesab edirlər.

# “Azərbaycanın imza atdığı qələbəyə kölgə salmağına xidmət edənlər...”

**Radikal müxalifətin hakimiyyətdə olduğu vaxtda dövlət müstəqilliyinə vurduğu zərbənin fəsadlarının aradan qaldırılması üçün uzun illər lazım olmuşdur. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı dağılmaq təhlükəsi ilə üzləşmiş Azərbaycanı radikal müxalifətin dövlətçiliyə vurduğu zərbədən xilas olunmasına yol açdı.**



*Azər Badamov*
*YAP İdarə Heyətinin üzvü,*
*Milli Məclisin deputatı*

Ulu Öndərin müəyyənləşdirdiyi siyasi xəttin uğuru möhkəm iqtisadiyyata malik və Prezident İlham Əliyevin rəhbərliyi altında qələbəyə imza atan Azərbaycanı ərsəyə gətirdi. Prezident İlham Əliyevin uzaqgörən siyasətini və liderlik bacarığını dünya tərəfindən qəbul etmişdir. Torpaqlarımızın erməni işğalından azad olunması da bir başa Prezident İlham Əliyevin beynəlxalq arenada apardığı siyasətin və ölkədə yaratdığı xalqın dövlətə olan inamı sahəsində imza atılmışdır. Təbii ki, ölkəmizdəki bu sarsılmaz iqtidar-xalq birliyi dövlət başçımızın rəhbərliyi altında aparılmış geniş inkiaf proqramlarından və o cümlədən dövlət siyasətindən məmnunluğu sayəsində nail olunmuşdur. Amma təəssüf ki, qalib Azərbaycanın uğularına kölgə salmağına çalışan xarici və daxili qüvvələr qalmaqdadır. Bu qara qüvvələr uzun illər eyni sözləri təkrarlayan, eyni məqsədlərə xidmət edən eyni adamlardır. Azərbaycanın uğurlarına və imza atdığı qələbəyə kölgə salmağına xidmət edənləri ancaq erməniyə dost və onun dəyirmanına su tökənləri adlandırardım. Çünki, bu gün Azərbaycan uzun illər işğal altındakı torpaqlarını azad etmiş, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində böyük işlər görürki, bunu da həzm edə bilməyənlərin cərgəsinə VHP-nin sədri youtube kanallarında etdiyi radikal çıxışları ilə Əli Əliyev də daxil olmuşdur. Atalar misalında deyilir ki, dünyada ən asan iki iş var. Baqalarına məsləhət vermək və başqaların pulunu saymaq. Əli Əliyevin dəst xətti bu iki amil üzərində qurulmuşdur. Birinci onu qeyd edim ki, Prezident İlham Əliyevə sizin məsləhətlərinə ehtiyacı yoxdur. Çünki, Azərbaycanın bu gün dünya çapında tutduğu mövqeyi və dünyada söz sahibinə çevrilməsi məhz Prezident İlham Əliyevin uzaqgörənliyi , siyasi iradəsi və vətəninə olan sevgisi sayəsində nail olunmuşdur. Sizin pafoslu çıxışlarınız isə ancaq insanların xoşuna gəlməsi üçün edildiyi hamıya məlumdur. Əli Əliyevin baxışında dövlət idarəçiliyində uğurlu heç bir sahə yoxdur və axırda qeyd edir ki, radikal müxalifət hakimiyyətə gəlməlidir ki, hər şey yoluna düşsün. Görün düşüncələri necə bəsit və gülüncdür. 90-cı illərin əvvəlində radikal müxalifətin kreslo davası nəticəsində ölkə vətəndaş müharibəsi ilə üzləşdiyini və torpaqların 20% işğal altına düşdüyünü heç kim unutmayıb. Bu gün hamı sizin məqsədini bilir və uzun illər təkrarladığınız eyni sözlərini eşidəndə xalq gülüşlə qarşılayır.

Əli Əliyev əhalinin vaksinləşməsindən başlamış, Qarabağda qazandığımız qələbəyə qədər, o cümlədən azad olunmuş ərazilərin yenidən qurulmasını da yanlış hesab edir. Birinci onu qeyd edim ki, ixtisasınız həkimlik olsa da sizin yanlış hesab etdiyiniz vaksinləşmə koronavirusa qarşı mübarizədə alternativsiz çıxış yolu olduğunu bütün dünya qəbul edib. Hətta dünyanın çoxlu ölkələri vaksin ala bilmədiyi halda dövlətimiz inkişaf etmiş ölkələrlə eyni vaxtda vaksinləşməyə başlaya bildik və əhaliyə kütləvi şəkildə peyvəndlər vurulur. Bu gün COVİD-19 infeksiyasına yoluxaraq reanimasiyalarda ağır vəziyyətə düşənlərin 97% peyvənd olunmayanların olduğu sizə də məlumdur. Məhz peyvənd olunanların arasında ölüm halları demək olar ki, yox dərəcəsində olduğu da sizə məlumdur. Dövlət vaksinləşməni insanların sağlamlıqlarını qorumaq üçün həyata keçirir və siz isə vaksiləşməməyə çağırış edirsiniz. Burda məqsədiniz nədən ibarətdirsə aydındır.

Digər tərəfdən işğaldan azad olunmuş ərazilərə qaçqın və köçkünlərin qayıtmasına icazə verilməməsində dövləti günahlandırısınız. Sizə də məlumdur ki, ermənilər işğal etdiyi torpaqlarımıza uzun illər 100 minlərlə minalar basdırmışdır. İşğaldan azad olunmuş ərazilərə özbaşına səfər edən 150-yə yaxın insan minaya düşərək ya həlak olmuş, ya da sağlamlıqlarını itirdiyini sizə məlumdur. Qaçqınların işğaldan azad olunmuş ərazilərə qayıtmasının ləngiməsinin səbəbi insanların təhlükəsizlik baxımından olduğunu yaxşı bilirsiniz. Siz insanları ora bir başa qaytarılmasını məsləhət bilməklə məqsədiniz ölümə göndərməkdən başqa bir şey deyil. Deyirsiniz ki, insanları Ermənistanla sərhədə qaytarmaqla canlı sədd təşkil etmək lazımdır. Birincisi dövlətimiz qaçqınları öz yurdlarına canlı sədd qurmaq üçün yox, yaşayıb yaratmaqları üçün qaytarcaqdır. Dövlətimiz bütün qaçqınları öz doğma yurdlarına o ərazilərdə təhlükəsiz həyat-şəraiti təmin edərək qaytarılacaqdır. Təbii ki, bir az gec olsa da hamı öz yurdlarına qayıdacaq və firavan şəraitdə yaşayaraq öz təsərrüfatları ilə məşğul olacaqlar. Sərhədlərimizi isə müasir silahlarla silahlanmış ordumuz qoruyur və ermənilərə ərazilərimizə addım atmasına imkan vermir. Rusiya sülhməramlıların məsuliyyət zonasında yaşayan ermənilər də tərksilah olunacaq və kimlər vətəndaşlığımızı qəbul edib yaşayacaqlarsa qalacaq, qalanlar isə rədd olub gedəcəklər. Sadəcə zamana ehtiyac var. Hər bir işi vaxtı yetişəndə görülür. Necə ki, sizin üçün yuxu kimi görünən torpaqların işğaldan azad edilməsini 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz təmin etdi. Məhz Prezident İlham Əliyevin rəhbərliyi altında qələbələrimiz davamlı olacaq, Azərbaycan dövlətinin gücü və qüdrəti daha da artacaqdır.

# Məktəblər açılarsa yoluxma baş verə bilər?



## TƏHSİL EKSPERTİNDƏN AÇIQLAMA

“Hesab edirəm ki, məktəblər açılarsa yoluxma baş verə bilərmi məsələsi ilə bağlı narahatlığa ehtiyac yoxdur. Çünki, təhsil müəssisələrinin açılması məsələsi təkcə bizim üçün deyil, fərqli-fərqli ölkələrdə artıq bu prosesə başlanılıb. Əlbəttə ki, təhsil müəssisələrinin açılması bütövlükdə ola bilsin ki, müəyyən qədər yoluxma saylarına öz təsirini göstərsin”. Məsələ ilə bağlı təhsil eksperti İlqar Orucov SİA-ya açıqlamasında bunları deyib. Onun sözlərinə görə, bütövlükdə bu məsələ ilə bağlı cəmiyyətin yekdil münasibəti olmalıdır və məktəb yaşlı uşaqlar risk qrupuna daxil deyil: “Ali təhsil müəssisələrində tələbələrin vaksinasiyasına başlanılıb və bununla bağlı bir problemi yoxdur və yaxud da onlar da vaksinasiya olunublarsa, burda da risk qrupu yoxdur. Eyni zamanda təhsil müəssisələrinin sanitar epidemioloji vəziyyəti nəzarət altındadır. Dezinfeksiya işləri mütəmadi olaraq aparılır. Pedaqoji heyət arasında, texniki işçilər arasında vaksinasiya faiz göstəricisi xeyli yüksəkdir. Düşünürəm ki, biz məktəblərin açılması ilə bağlı qərarı dəstəkləməliyik”.



Ekspert sözlərinə belə davam edib: “Fərqli ölkələrdə, hətta pandemiyanın ilk zamanında təhsil müəssisələrində qapanmalar oldu və Azərbaycan da istisna olmadı. Amma bəzi ölkələr hətta keçən tədris ilindən belə məktəbləri qismən də olsa açdılar. Bu baxış da hesab edirəm ki, cəmiyyətdə bütövlükdə məsuliyyəti yüksək olacaqsa, məktəblərdə yoluxma ilə bağlı artımı çox da müşahidə edə bilməyəcəyik. Nəzərə alsaq ki, yoluxma olan məktəblərdə bilirsiniz ki, lokal tədbirlər həyata keçirilir, qapanmalar olur, belə olan təqdirdə əlbəttə ki, mən təhsil müəssisələrində çox da ciddi bir yoluxma ilə bağlı artımın olmasına istisna edirəm və fikirləşirəm ki, belə ciddi problemlər yaşamayacağıq. Amma o halda ki, cəmiyyət məsuliyyəti dərk etsin və məsuliyyətli davransın”.

*Ayşən Vəli*

# “Bitkoin”in qiymətinin qalxması nələrə səbəb olacaq?



## İqtisadçı açıqladi

“Bitkoin” bütün dünyada treyderlər arasında geniş yatırım edilən kriptovalyuta növlərindən biridir. “Bitkoin” ötən il 11 min dollar olduğu halda son təqribən doqquz-on ay ərzində bu günləri 52-53 min dollar arasında ticarət olunur. Bunun da bir sıra səbəbləri var. Bu simulyatif məsələlərdən qaynaqlanır. Məsələn keçən il birdən-birə payız aylarında “bitkoin” bahalaşmağa başladı. Payız aylarında qalxdı 20 min dollara, ondan sonra dekabr aylarında artıq 30 min dolların üzərinə qalxdı. Hazırda 52-53 min arasında ticarət olunur. Bu da o deməkdir ki, hardasa 350 faiz bahalaşma baş verdi”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Asif İbrahimov deyib.



Onun sözlərinə görə, bunun bir çox səbəbləri var. Dünyanın aparıcı təşkilatları var, məsələn Teslanın sahibi Elon Mosk kriptovalyutalar yatırım edəcəyi haqda məlumat vermişdi. Dünyanın aparıcı finans qurumları, məsələn “Morgan Stanley” həmin o kripyovalyutalara yatırım edəcəyini və masterkardda bütün bu vəsaitlərin saxlanması ilə bağlı məlumat yayılmışdı. Kriptovalyutaların, əsasən, ABŞ və Aİ iqtisadiyyatı ilə bağlıdır. Kriptovalyutanın dünyanın və ölkəmizin iqtisadiyyatına təsiri ilə bağlı Asif İbrahimov: “Amma bir məsələni qeyd etmək istərdim ki, pandemiya dövründə bunun səbəbi Avropa İttifaqı və ABŞ iqtisadiyyatlarında müəyyən tənəzzül müşahidə etməyə başlayıb. Onlar belə smulyatif yola əl ataraq dünyanın qlobal transmilli korparasiyaları vasitəsi ilə belə spekulatif addımlar atmağa başladılar. Təbii ki, məlumdur ki, kriptovalyuta satışdır. Satış da, əsasən, dollarla, avro ilə həyata keçirilir. Bu əlavə vasitələrin cəlb olunmasıdır.

Azərbaycan iqtisadiyyatına gəldikdə, məlumdur ki, ölkəmizdə də bu kriptovalyutaların treydi ilə məşğul olan insanlar, hüquqi və fiziki şəxslər mövcuddur. Azərbaycan iqtisadiyyatına, sadəcə, bunun bir köməyi ola bilər ki, vergiyə cəlb olunma halları varsa, Azərbaycan dövlət büdcəsinə, müəyyən qədər vəsait axını baş tutar. Amma bunun satışını izləmək çox çətindir. Məlumdur ki, bu könüllük əsasında kimsə hər hansı bir vergi ödənişini həyata keçirərsə, baş verə bilər. Xüsusilə, bu Avropa İttifaqının və ABŞ-ın iqtisadiyyatına əlavə təkan verə biləcək alətlərdən biridir. Düşünürəm ki, oktyabr və noyabr aylarında bu rəqəm 53 min dolların altına düşəcək. Dünya qlobal iqtisadiyyatı normala geri qayıtdıqda bu rəqəm 30 minin üzərinə düşəcək. Pandemiyanın tüğyan etdiyi ilk ayda ən çox zərər çəkən iqtisadiyyatlardan biri Avropa İttifaqı iqtisadiyyatı idi. İttifaqın iqtisadiyyatı 9 faiz tənəzzülə başlamışdı. Nəticədə, bu smimulyatif addımlar əlavə dəyər qazandırmaq cəhdləri kimi ortaya atıldı. Azərbaycan iqtisadiyyatına bundan hər hansı təsir yoxdur. Əgər belə bir mexanizm fikirləşilərsə ki, kriptovalyuta treyderlərinin vergiyə cəlb olunması ilə bağlı, hə, onda dövlət büdcəsində ödəmələr arta bilər. Amma belədə bu, ancaq Aİ və ABŞ iqtisadiyyatına xidmət edən pul vahidləridir”.

*Turqay Musayev*

# “Covid-19”-un səbəb ola biləcəyi uzunmüddətli təsirlər nədir?

**Pandemiya nə qədər uzun sürərsə, koronavirusun sağlamlığımıza verdiyi zərər də bir o qədər uzunmüddətli və əhatəli olar. “Covid-19”-a yoluxanlar xəstəliyi keçirdikdən sonra da bir çox simptomlarından şikayət edirlər.**

Xüsusilə ağır simptomlarla virusa yoluxanlar sağalma müddətinin uzun olmasından şikayətlənirlər. Koronavirus çoxorqanlı bir virus sayılır. Ağciyərdən başqa böyrək, ürək, qaraciyər və ya beyin kimi bir çox orqanda meydana gələ bilər. Bununla əlaqədar olaraq, “Covid-19” xəstəliyinin müşahidə edilən uzunmüddətli təsirləri də fərqli simptomları ehtiva edir. Virusun bir çox yeni növü yaranır. Bu səbəbdən “Covid-19” xəstəliyinin uzunmüddətli təsirləri və nəticələri hələ müəyyən edilməmişdir.

Nəfəs darlığından başgicəllənməyə qədər bir çox təsirə səbəb olur.

Xəstəliyə yoluxanların təxminən 80 faizi ya infeksiyanın təsirini hiss etmir, ya da çox az təsir göstərir. Xəstəliyin yüngül olduğu hallarda, koronavirus infeksiyası iki-üç həftə davam edir. Ağır hallarda, kəskin xəstəlik dövrü iki dəfə çox davam edə bilər. Müxtəlif orqanlarla əlaqəli uzunmüddətli təsirlər müşahidə edilə bilər. Bəzi xəstələrdə, kəskin xəstəlik dövrü keçdikdən sonra daimi yorğunluqdan nəfəs darlığına, nevroloji xəstəliklərə, qəfil qusmaya və ya şiddətli başgicəllənməyə qədər fərqli simptomlar ortaya çıxa bilər.

Bu fenomen “Uzun Covid” və ya “Post-”Covid-19” Sindromu” olaraq da bilinir.. Bununla birlikdə, araşdırmalara görə, xəstələrin təxminən 10 faizi bu cür uzunmüddətli təsirlərdən əziyyət çəkir.

Ciddi bir “Covid-19” xəstəliyindən əziyyət çəkən xəstələr tez-tez uzunmüddətli təsirlərindən şikayətlənirlər. Bir çox xəstə, simptomların başlanmasından bir neçə ay sonra ağciyərlərində dəyişikliklər yaşayır. COVID-19 xəstəliyi zamanı Vuhanda xəstəxanaya yerləşdirilən 1700 xəstənin üzərində aparılan araşdırmada xəstələrin 76 faizi infeksiyadan altı ay sonra ən az bir simptom göstərib. Oxşar nəticələr Almaniyada aparılmış bir araşdırmada da əldə edilmişdir.

Bununla birlikdə, yüngül “Covid” xəstələrində də problem yarana bilir və fərqli simptomlara səbəb ola bilər. Belə xəstələrin bir çoxu sonrakı yaddaş pozğunluqlarından şikayətlənirlər. Eyni şəkildə, koronavirus infeksiyasının tipik bir əlaməti olan dad və qoxu hissinin itirilməsi də uzun müddət davam edə bilər. Yorğunluq ən çox müşahidə edilən simptomlarından biridir. Bu vəziyyətdə olan xəstələr, kəskin “Covid-19” xəstəliyindən sağaldıqdan sonra xroniki yorğunluqdan şikayətlənirlər.

“Covid-19”-dan sonra ortaya çıxan gecikmiş simptomlar, vurduqları zərər baxımından da spesifik deyil və bu mövzuda araşdırmalar hələ də davam edir. Eyni zamanda, zərərçəkmişlərə kömək etmək və yeni məlumatlar əldə etmək üçün tədbirlər görülməyə davam edir. Bu gün, Dünyanın bir çox ölkələrində klinikalarda koronavirusun uzunmüddətli təsirlərindən əziyyət çəkən xəstələrə yardım göstərilməsi üçün “post-Covid” ambulatoriya mərkəzləri qurulmağa başlayıb. Yorğunluq əlamətləri altı aydan çox davam edə bilər.

Davam edən yorğunluq, tükənmə və istəksizlik şəklində öz mahiyyətini göstərir. Yorğunluq xroniki çətinliklərlə ortaya çıxır. Bu təsirin mənşəyi hələ də yetərincə araşdırılmamışdır. Bu təsirdən əziyyət çəkən insanların sağalma müddətində daha aktiv olması məsləhət görülür. Tövsiyyə olunur ki, sakitlik və rahatlama, yüksək məhsuldarlıq, normal gecə-gündüz rejmini qaydaya salsınlar. Eyni şəkildə nəfəs məşqləri etməklə tezliklə bu yorğunluqdan azad ola bilərlər.





Yeni növ koronavirusun dünyada pandemiyaya çevrilməsi ilə birlikdə virusun fizioloji təsiri və qorunma üsulları tez-tez mətbuatda dərc olunmağa başladı. Bununla birlikdə, koronavirus hadisələrinin artması ilə fizioloji təsirlərə əlavə olaraq insanlarda psixoloji təsirlər də var. Virusun yayılmasını azaltmaq üçün tövsiyə olunan üsullar və milli-beynəlxalq tədbirlər gündəlik həyatımızı tamamilə dəyişdirdi. Məktəblər bağlandı, bir çox müəssisə müvəqqəti olaraq bağlandı, idman tədbirləri təxirə salındı, kinoteatrlar və iri ticarət mərkəzləri bağlandı. Elə bir vəziyyət var idi ki, məcbur olmadıqca çölə çıxa bilmədik. Hər kəsin evdə qalması lazım olan bu yeni şəraitə uyğunlaşmaq və bu prosesi heç bir problem olmadan keçmək çətin oldu.

Koronavirusun psixoloji təsirləri həm böyüklərdə, həm də uşaqlarda görülə bilər. Bu müddətdə valideynlərin uşaqları ilə əlaqələri, virusu necə izah etdikləri və bu prosesi necə idarə etdikləri də uşaqların psixologiyasında təsirli olur. Bu vəziyyətdə ortaya çıxa biləcək psixoloji problemlərdən biri də həddən artıq nigarançılıq və narahatlıqdır. Bütün dünyanı təsir altına alan yeni virusun olması qorxu və narahatlıq yaradır.

Hər gün yeni növlərin bildirilməsi və yalan məlumatların dolaşması bu qorxu və çaxnaşma vəziyyətini artırır. Elm adamlarının yavaş-yavaş koronavirus haqqında yeni məlumatlar ortaya qoyması, davam edən qeyri-müəyyənlik və virusun sürətlə yayılması bu qorxunun əsas səbəbləridir. Ancaq bu qorxu nəinki xəstəliyə qarşı müdafiəni azaldır, həm də narahatlığı artırır.

Koronavirusun yaratdığı digər psixoloji problem depressiyadır. Dinc hiss etməyinizə səbəb olacaq fəaliyyətlərdən uzaq durmaq insanları depresiv bir ruh halına gətirə bilər. İnsanlar bu depresiv əhval-ruhiyyə üzündən həyatdan zövq ala bilməyən birinə çevrilə bilərlər. Ehtiyac duyduqları həyat rejiminə çata bilməmək, həyatdan təcrid olunmaq və ünsiyyət qura bilməmək depressiyaya səbəb ola bilər.

“Covid-19 yoluxub sağalan insanlarda müəyyən qalıq əlamətləri qalır”. Bunu mövzu ilə əlaqədar SİA-ya açıqlamasında Tibb üzrə fəlsəfə doktoru, həkim-infeksionist Vüqar Cavadzadə deyib.

Həkim infeksionist Vüqar Cavadzadə bildirib ki, xəstəlikdən sonra qalan bu təsirə “Post Covid” sindromu deyilir: “Yəni, “Covid-19”-a yoluxub sağaldıqdan sonra bir çox insanlarda öskürək, boğaz ağrısı, yuxusuzluq, ürək döyüntüsü, əsəbilik, təngənəfəslik və s kimi əlamətlər qala bilər. Onu qeyd edim ki, “Covid-19” keçirən insanlarda daha çox saç tökülməsi kimi əlamətlər müşahidə edilir. Bu sonradan müşahidə olunan təsirlərin davam etmə müddəti də müxtəlifdir. Ən çox görülən simptomlardan iyibilmə və dadbilmə qabiliyyətinin bərpa olunması bəzi xəstələrdə hətta 4-5 ay davam edə bilər. “Covid”-i keçirib sağalan insanlar yenidən koronavirusa yoluxa bilərlər. Təqribən dördə və ya beş aydan sonra yoluxma hadisədi baş verə bilər. Lakin, bu da çox az hallarda müşahidə edilir”.





***Qönçə Quliyeva***

# 8 sentyabr Jurnalistlərin Beynəlxalq Həmrəylik Günüdür

## Həmrəylik ən ali dəyərlərdən biridir

**İnsanların həmrəyliyi cəmiyyətin xoşbəxliyi, firavanlığıdır. Hər hansı ideya, məslək ətrafında sıx birləşib xoş diləklərin carçısı olmaq əlbəttə ki, həmrəyliyi ifadə edir. Bu gün qloballaşan dünyamızda həmrəy olmaq çox məsələlərin həllində, dünyanın nizamında önəmli faktordur. Təbii ki, hər bir xalqın milli birlik fəlsəfəsi var. Bu istiqamətdə həmrəylik vacib məsələlərdəndir. Müasir dünyamızda beynəlxalq aləmdə yekdil olmaq mühüm məsələlərin həllində əhəmiyyət kəsb edir. Bir tribunadan insanları sülhə, əmin-amanlığa, ədalətə səsləmək və milyonlarla insanı xoşməramlı niyyətlər ətrafında həmrəy etmək çətin məsələ olsa da, çox önəmlidir.**



Bu gün sentyabrın 8-də dünyada Jurnalistlərin Beynəlxlaq Həmrəylik Günü kimi qeyd olunur. 1958-ci ildə, hitlerçilər tərəfindən 1943-cü il sentyabrın 8-də həbsxanada edam olunmuş çex jurnalisti Yulius Fuçikin şərəfinə təsis edilib. O cavanlığından siyasətlə maraqlanmağa başlayıb, 1921-ci ildə Çexiyada Kommunist Partiyasının yaradıcılarından biri olub. Mənbələrdə qeyd olunduğu kimi, Fuçikin "Edamqabağı reportaj" kitabı 70 dilə tərcümə edilmiş, dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Həmrəylik günü münasibətilə bir çox ölkələrdə festivallar, konfranslar, jurnalistlərin qurultayları və digər tədbirlər keçirilmişdir. Bütün ölkələrin jurnalistləri və nəşrlər bu gün dünyaya öz hüquqlarının müdafiəsi işində həmrəykliklərini nümayiş etdirməlidirlər. Bu adi peşə bayramı deyil, jurnalistlərin birlik, həmrəylik günüdür.

Əlbəttə ki, bu gün informasiya texnologiyalarının inkişafı imkan yaradıb ki, insanlar bir qitədən başqa bir qitə haqqında kifayət qədər məlumat əldə edə bilirlər. Ölkələrdə baş verən hadisələr, bunlara jurnalist yanaşması aktuallıq kəsb edir. Haqqın, ədalətin müdafiəsində tirajlanan qəzet və jurnallarda eşidilən səs, yer alan fikirlər jurnalist əməyidir, cəsarətidir. Bu gün dünya jurnalistləri üçün bir araya gəlmək üçün geniş imkanlar var. Beynəlxalq əhəmiyyət kəsb edən tədbirlərin ölkəmizdə keçirilməsi fikrimizi əsaslandırır. Dünyada inkişaf etmiş ölkə kimi tanınan söz və mətbuatın azadlığının təminatçısı olan Azərbaycan bu gün dünya ölkələrinə bir nümunədir. Belə bir ölkədə keçirilən beynəlxalq səviyyəli tədbirlər ölkəmizin nüfuzunun göstəricisi, demokratik dəyərlərə önəm verən ölkə olmasından irəli gəlir. Bildiyimiz kimi, ölkəmizdə, paytaxt Bakıda Dünya Xəbər Agentliklərinin V Konqresi keçirildi. Dünya Xəbər Agentliklərinin V Konqresinin sessiyalarında "Multimedianın gələcəyi üçün jurnalistlərin təlimi", "Jurnalistlərin missiyasının qorunması: azadlıq, çıxış imkanı, təhlükəsizlik və münaqişə zonaları" mövzularında məruzələr dinlənildi, müzakirələr aparıldı. Tədbirlərdə dünyanın 80 ölkəsindən informasiya siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən 190-a yaxın xəbər agentliyinin rəhbərləri və təmsilçiləri, media üzrə beynəlxalq ekspertlər, BMT - UNESCO-nun rəsmi nümayəndəsi, həmçinin regional media qurumlarının əməkdaşlarının iştirakı əlbəttə ki, ümumi məsələlərin həllində və müzakirəsində önəmlidir. Konqresdə Asiyanın 31 ölkəsindən 39 agentliyin 77 nümayəndəsi, Avropanın 23 ölkəsindən 30 agentliyin 51 təmsilçisi, Afrika qitəsinin 16 ölkəsindən 16 agentliyin 25 nümayəndəsi, Amerika qitəsinin 7 ölkəsindən 9 agentliyin 17 əməkdaşı, habelə Avstraliyanın 3 agentliyini təmsil edən 4 nümayəndənin iştirakı beynəlxalq həmrəyliyə söykənir. Çünki bütün təmsilçilər bir araya gəlmiş oldular. Yeni texnologiyaların və sosial medianın çağırışları və imkanlarının müzakirəsi müasir dünaya üçün olduqca aktualdır.

Bu gün Azərbaycan bütün sahələrə olduğu kimi, mətbuata və onun təmsilçilərinə də diqqət və qayğı ilə yanaşır. Ölkəmizdə jurnalist həmrəyliyinə əsaslanan media formalaşıb. Bu gün Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşdi. Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Əgər bu gün mətbuata göstərilən yüksək diqqət və qayğıdan söz açırıqsa, jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan vəsatin ayrılmasını da qeyd etməliyik. Dövlət başçısının "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" 2010-cu il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün yaşayış binasının tikilməsi dövlətimizin yüksək diqqət və qayğısının əyani təsdiqidir. Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı. Bu gün informasiya mühiti gündən-günə modernləşir, qabaqcıl texnologiyalar həyatımıza daxil olur. Belə bir zamanda mətbuatımızın qarşısında cəmiyyəti daha obyektiv, daha peşəkarlıqla məlumatlandırmaq kimi məsuliyyətli vəzifə dayanır. Bu gün biz ən həssas dönəmlərdə birləşməyi bacarırıq. Eyni yerə yumruq vururuq. Son dövrün hadisələri bunu bir daha ortaya qoymuş oldu. Əlbəttə ki, iki cəbhədə ən çətin zamanlarda vuruşan Azərbaycanda bütün xalqımız, eləcə də jurnalistlər həmrəy oldular. Koronavirusla mübarizə və 44 günlük Vətən müharibəsi. Ağır dönəm olsa da birləşməyi bacardıq. Ən qaynar nöqtələrdə biz mətbuat işçilərinin səsini eşitdik. Bir cəbhədən - 44 günlük Vətən müharibəsindən Zəfərlə çıxdıq. Qısa bir zamanda pandemiyaya da qalib gələrik. Müharibə zamanı, hətta beynəlxalq aləmin mətbuatı da bizimlə həmrəy oldular. Azərbaycan həqiqətlərini dünyaya çatdırdılar, erməni xisləti ilə bəşər övladını tanış etdilər. Bu əlbəttə ki, birgə həmrəyliyə, əməkdaşlığa söykənir.

***Zümrüd BAYRAMOVA***

# Media eksperti: "Azərbaycanın qələbələri əbədi olacaq"



2020-ci ilin noyabrın 10-da Ermənistanın kapitulyasiya aktının imzalanmasından, yəni Azərbaycanın 44 günlük Vətən müharibəsində qalib gəlməsindən və işğal altında olan torpaqların azad etməsindən dərhal sonra Azərbaycan dövləti bu ərazilərdə abadlıq, quruculuq, bərpa işlərinə start verib. Azərbaycan dövlətinin Qarabağda həyata keçirdiyi layihələr ən mühüm sahələri əhatə edir". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, media eksperti Müşfiq Ələsgərli bildirib.

M.Ələsgərlinin sözlərinə görə, həm mədəniyyət abidələri, həm yaşayış üçün zəruri olan infrastruktur, həm də sənaye iqtisadi obyektlər və s. tikili istifadəyə verilir: "Azərbaycan Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bölgəyə çox intensiv şəkildə səfər edirlər və hər səfərləri zamanı onlar yeni obyektlərin açılışını edirlər. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva sonuncu səfəri avqustun 29-da həyata keçirildi və Onlar Füzuli, Xocavənd, Şuşa şəhərində onlarla obyektin açılışını etdilər. Biz qısa şəkildə deyə bilərik ki, Şuşa şəhərində abadlıq quruculuq bərpa işləri ümumilikdə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən işlərin simvolu kimi qəbul oluna bilər. Cənab Prezident sonuncu avqustun 29-da səfəri zamanı burada onlarla obyektin açılışını etdi. Burada Qarabağ oteli istifadəyə verildi, yeni otel və konfrans mərkəzinin tikintisinə start verildi, eyni zamanda, böyük sənətkarımız Üzeyir Hacıbəyovun, Bülbülün, Mola Pənah Vaqifin muzeylərinin açılışı edildi. Bunlarla yanaşı Şuşada yeni yaşayış massivinin əsası və təməli qoyuldu və həmin massivin tikintisi üçün Prezident layihəni imzalamış oldu".

M.Ələsgərli onu da qeyd etdi ki, cənab Prezident səfəri zamanı eyni zamanda, Füzulini ziyarət etdi və burada inşa olunan hava limanı ilə yaxından tanış oldu: "Füzuli hava limanı son 8 ay ərzində tikilib və istifadəyə hazır vəziyyətinə gətirilib. Bu Azərbaycanda eyni zamanda, bütün dünyada bu qədər sürətlə tikilmiş yeganə hava limanıdır. Yəni 8 ay ərzində bir hava limanının tikilib istifadəyə verilməsi heç də asan məsələ deyil. Amma Azərbaycan bu işi bacarmış oldu. Necə ki, 44 günlük müharibəni sürətli şəkildə həyata keçirtdisə eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə abadlıq-quruculuq işlərini də çox sürətlə həyata keçirir. Görülən işlər ilk növbədə Azərbaycanın iqtisadi qüdrətindən xəbər verir. Çünki bu işləri görmək böyük maliyyə yatırımları tələb edilir. Azərbaycan bu işləri görməklə həm dünya ictimaiyyətinə, həm beynəlxalq erməni lobbisinə, həm Ermənistan dövlətinə, həm də erməni xalqına mesajlar vermiş olur. Mesajlar ondan ibarətdir ki, Ermənistan 28 il ərzində orada heç bir proses və abadlıq işlərini həyata keçirməyib. Gördüyü işlər yalnız ərazilərin dağıdılması və xarabazara çevirməsindən ibarət olub. Amma 8 ay ərzində Azərbaycan dövləti burada abadlıq-quruculuq və bərpa işlərini həyata keçirib. Yol infrastrukturu, hava nəqliyyat infrastrukturu qurulub, yaşayış massivləri tikilib, keçmiş yaşayış binaları bərpa olunub və yaşayış üçün hazır vəziyyətə gətirilib. Bu ərazidə yaşayan və erməni xalqının təmsilçisi olan insanlara da bir mesajdır. Onlar görməlidirlər ki, əgər Azərbaycan vətəndaşlığını qəbul edib, burada sakit şəkildə yaşamağa üstünlük verəcəklərsə Azərbaycanın iqtisadi qüdrəti, siyasi iradəsi quruculuq-abadlıq işləri onları da əhatə edəcək. Yox onlar fərqli davranacaqlarsa onda Azərbaycanın yenə də sərt üzünü görmüş olacaqlar".

Media eksperti bildirdi ki, son 8 ay ərzində icra olunan ən uğurlu layihələrdən biri də Füzulidən Şuşaya qədər uzanan Zəfər yoludur: "Məlumat üçün deyim ki, bu yolun uzunluğu 101 kilometrdir və həmin 101 kilometrlik iki zolaqlı yol artıq tikilərək istifadəyə verilib. Azərbaycan Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın regiona səfərləri çərçivəsində avqustun 29-da yeni bir layihənin də təməli qoyuldu, burda artıq 6 zolaqlı yolun Şuşaya qədər çəkilməsi nəzərdə tutulur. Zəfər yolu Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətinin simvoluna çevrilib. İnşallah ümid edirik ki, Azərbaycanın qələbələri əbədi olacaq, iqtisadi, siyasi, hərbi qüdrəti daimi olacaq və bütün region üçün, Azərbaycan bütövlükdə bir qalibiyyət simvoluna çevriləcək".

***Gülyana***

# "Qısa zamanda görülən işlər təqdirəlayiqdir"




"İşğaldan azad olunmuş torpaqlara "Böyük Qayıdış"ın həyata keçirilməsi üçün dövlətimiz böyük proqramlar icra edir. Bu proqrama daxil olan layihələr ilk növbədə təhlükəsizliyin təmin olunması istiqamətində görülən işlərdir. Ərazilər minalardan təmizlənir və təhlükəsiz səfərlərin, digər işlərin görülməsi üçün imkanlar yaradılır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin üzvü Azər Badamov deyib.

Deputatın sözlərinə görə, o cümlədən infrastrukturun müasirləşdirilməsi istiqamətində işlər sürətlə aparılır: "Yol infrastrukturu müasirləşir, yeni yollar salınır. Bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 700 kilometrə qədər əsas magistral yolların yenidən bərpası işləri başa çatmaq üzrədir. O cümlədən enerji ilə əlaqədar məsələlər öz həllini tapır. Yarımstansiyalar tikilir, yeni xətlər çəkilir və yenidən qurulacaq yaşayış məntəqələrinin fasiləsiz, dayanıqlı enerjinin təmin edilməsi işləri görülür. İçməli və suvarma sularının təminatı məsələləri istiqamətində də layihələr icra olunur".

A.Badamov vurğulayıb ki, həmçinin, böyük yaşayış yerlərinin ağıllı kənd, ağıllı şəhər layihələri ilə yenidən qurulması istiqamətində böyük işlərin icrasına başlanılıb: "Ağdam və Şuşa şəhərlərinin baş planlarının təsdiq olunması, yeni yaşayış massivinin cənab Prezident tərəfindən təməlinin atılması istiqamətində işlər xüsusi qeyd edilməlidir. Sentyabrın 5-də Füzuli Beynəlxalq Havalimanına sınaq reyisinin keçirilməsi böyük qayıdışın bir hissəsidir. Dövlətimiz mərhələli şəkildə böyük qayıdışımızın həyata keçirilməsi üçün müasir infrastruktur və yaşayışın yaradılması istiqamətində görülən işlərin müəyyən hissəsi icra olunduqdan sonra qayıdış işinin təşkilinə başlanılacaq".

***Aysel Məmmədova***

# Azərbaycan bu gün dünyada yüksək nüfuz sahibi olan ölkələrdən biridir

**Azərbaycan bu gün dünyada yüksək nüfuz sahibi olan ölkələrdən biridir. Bütün dünya ölkələri, beynəlxalq təşkilatlar hər biri ölkəmizə qarşı hörmətlə yanaşır. Təbii ki, bütün bunların əsasında böyük əməyin, misilsiz işlərin görülməsi dayanır.**

Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadiyyatı güclü və dayanıqlı iqtisadiyyata çevirilmişdir. Məhz bunun sayəsində güclü Ordu quraraq, milli birlik nümayiş etdirərək 30 ilə yaxın müddətdə işğalda qalan ərazilərimizi düşmən tapdağından azad etdik. Əlbəttə ki, bu Azərbaycan tarixinin Zəfər səlnaməsi adlanan ən parlaq səhifəsidir. 44 günlük Vətən müharibəsində Azərbaycan təkcə Ermənistan silahlı birləşmələrinə, erməni terrorçularına deyil, eyni zamanda dünyada mövcud olan erməni faşizminə, erməni lobbisinə ağır zərbə vuraraq torpaqlarımızı işğaldan azad etdi və ərazi bütövlüyümüzü təmin etdi. Çox qısa müddətdə Azərbaycan bütün dünyaya güclü, qüdrətli dövlət olduğunu nümayiş etdirdi və sübut etdi ki, xalqımız qalib xalqdır.

Müharibənin bitməsindən 9 ay keçməmiş işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərinin həyata keçirilməsi, mədəni, tarixi, dini abidələrimizin bərpası Azərbaycan dövlətinin öz soy-kökünə nə qədər sıx şəkildə bağlı olduğunu bir daha nümayiş etdirir. Digər bir tərəfdən işğaldan azad olunmuş ərazilərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində keçirilən mədəni tədbirlər ölkəmizin və xalqımızın qədimliyindən, zəngin tarixə, mədəni irsə malik olmasından xəbər verir.



***Cavid Osmanov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı***

Azərbaycanın beynəlxalq münasibətlər sistemində çox mühüm addımlar atmışdır. Əbəs yerə deyildir ki, Azərbaycan BMT-dən sonra təsisatına görə ikinci böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edir. Ölkəmizin sədrlik döneminin uğurlu, eyni zamanda ədalətli olması bu müddətdə Qoşulmama Hərəkatının nüfuzunun günbəgün atması nəzərə alınaraq Hərəkat üzvü olan ölkələr yekdilliklə çıxış edərək Azərbaycanın sədrlik müddətini bir il daha artırmışlar. Eyni zamanda Azərbaycanın təşəbbüsü ilə BMT tarixində nadir hallarda baş verən Xüsusi sessiyanının çağırılması, ölkəmiz tərəfindən irəli sürülən təkliflərin dəstəklənməsi, Azərbaycanın qlobal məsələlərdə mühüm rol oynaması ölkəmizin beynəlxalq münasibətlər sistemində böyük əhəmiyyətə malik olmasının göstəricisidir. Bütün bunların əsasında isə ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri, Müəzzəffər Ali Baş Komandan cənab İlham Əliyevin düzgün qurduğu strategiya, həyata keçirdiyi uğurlu islahat və tədbirlər dayanır. Məhz bütün bunların nəticəsi olaraq ölkəmiz beynəlxalq aləmdə yüksək nüfuz sahibinə çevirilməkdədir.

Azərbaycanın əldə etdiyi bu uğurları gözü götürməyən, düşmən dəyirmanına su tökən anti-milli və dağıdıcı radikallar hər addımda ölkəmizə qarşı qarayaxma kampaniyaları aparmağa çalışırlar. Hansı ki, bu şəxslərin səriştəsizlikləri və xəyanətləri üzündən torpaqlarımız işğala məruz qalmış, 30 ilə yaxın dönəmdə düşmən tapdağında qalmışdır. Azərbaycan öz ərazi bütövlüyünü təmin etdikdən sonra həmin bu şəxslərin qazandığımız uğurlara, parlaq Zəfərimizə qarşı çıxmaqları onların kimlərə və hansı dairələrə xidmət etməklərini göstərir. Bunlardan AXCP sədri Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Qənimət Zahid kimi anti-millilər sosial şəbəkələrdə ölkəmizə qarşı, əldə edilən uğurlarımıza qarşı qarayaxma, böhtan kampaniyaları aparırlar. Bundan öncəki açıqlamalarımda da qeyd etdiyim kimi, Əli Kərimli özünü Ermənistanın ölkəmizdə qeyri-rəsmi səfiri kimi aparır. Bu günlərdə daha biri peyda olub və var gücü ilə Ermənistanın Azərbaycanda qeyri-rəsmi konsulu kimi "fəaliyyətdədir". Azərbaycanın bütün uğurlarına qarşı çıxan və özünü "siyasətçi" kimi göstərməyə çalışan, manipulyator VİP sədri Əli Əliyevdir. Bu şəxs qeyd edir ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində hansı mövqe tutmasından baş açmır. Əlbəttə ki, baş açmayacaq. Bunun üçün baş, ağıl lazımdır. Komputer qarşısında, öz-özünə monoloq söyləyən və heç nədən əsəbləşən bir adamdan heç zaman siyasətçi ola bilməz. Azərbaycanın beynəlxalq münasibətlər sistemində əldə etdiyi və yuxarıda qeyd etdiyim uğurlarını görə bilmək, anlamaq üçün isə gərəkdir ki, siyasətçi olasan. Əgər Azərbaycan beynəlxalq müstəvidə öz münasibətlərini qura bilməsəydi biz Ermənistana, dünyada mövcud olan erməni faşizminə və onların havadarlarına qalib gələ bilməzdik. Bunu Əli Əliyev yaxşı dərk etməli və bundan nəticə çıxarmalıdır.

Bundan əlavə bütün dünyada koronavirus pandemiyası davam edir və belə olan halda yeganə çıxış yolu vaksinləşmədir. Məhz ölkəmiz də vaksinləşmə prosesinə start verən ilk ölkələrdən biri olmuş, ümumilikdə Azərbaycan dövlətinin həyata keçirdiyi koronavirusla mübarizə tədbirləri Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir. Koronavirusla mübarizə, zamanında vaksinləşmə prosesinin həyata keçirilməsi Azərbaycan üçün milli təhlükəsizlik məsələlərindən biridir. Xalqımız üçün milli təhlükəsizlik məsələsi olan bir məsələyə özünü "həkim" adlandıran birinin qarşı çıxması və insanlarda qorxu yaratması, insanları vaksinləşməyə qarşı itaətsizlik etməyə çağırması, "vaksinlər gələcəkdə fəsadlar verəcək" deyə insanlarda əsassız fikirlər formalaşdırmaq koronavirusa yoluxmanın artmasına nail olmaq cəhdi, milli təhlükəsizliyimizə qarşı çıxmaqdır. Bu cəhdlə də səhiyyə sistemində yüklənmələrin, ölkədə xaotik vəziyyətin yaranması Əli Əliyev kimilərinin görmək istədikləri səhnələrdir.

Azərbaycanın uğurla inkişaf etməsini, əldə etdiyi möhtəşəm Zəfəri, qalib xalq olmasını qəbul edə bilməyən dairələr özünü müxalifət adlandıran Əli Əliyev kimilərinə tezislər verməklə ölkəmizdə qarışıqlıq yaratmaq niyyəti güdürlər. Özünü və ətrafında olan 3-5 nəfəri idarə edə bilməyənlər heç zaman bu niyyətlərinə nail ola bilməyəcəklər. Beləələri ölkəni idarə etmək kimi xam xəyallardan da əl çəksinlər və ölkəni idarə edən şəxslərə qarşı əsassız qarayaxma kampaniyalarından uzaq dursunlar. Anlasınlar ki, belə iyrənc üsullarla heç bir dividend qazana bilməyəcəklər. Yalançı vədlər və pafoslu fikirlərlə hakimiyyətdə olmaq artıq mümkün deyil. Çünki xalqımız belələrinə çoxdan yox deyib. Bunların çıxışlarına baxanlar isə onlara sadəcə gülüş obyekti olaraq baxırlar. Əli Əliyev, Əli Kərimli kimilərinin düşmən mövqeyində olduğunu xalqımız çox gözəl bilir. Bu adamlar dövlətçiliyimizə, müstəqilliyimizə qarşı xəyanət yolu tutublar və heç zaman Azərbaycan hakimiyyətinin, Yeni Azərbaycan Partiyasının xalqımız, dövlətimiz naminə gördüyü işlərə kölgə sala bilməyəcəklər. yap.org.az

# Vətənini sevən insan bu qədər həzz alaraq yaxşıya yaman deməz

Hal hazırda ölkəmizi növbəti konsert səfərlərində təmsil eləmək üçün uzun yola çıxmışam. Hər zaman olduğu kimi, indi də növbəti uçağı gözləyərkən müxtəlif xəbər saytlarını izləyirəm, çıxışları dinləyirəm, videoçarxlara baxıram. Dövlət başçımızın apardığı mükəmməl siyasət nəticəsində ölkəmizdə çox qürurverici anlar baş verməkdə davam edir! Ən son xəbərlərdən biri Şuşada bir çox tarixi abidələrin ən qısa zamanda yüksək səviyyədə yenidən bərpası, mənim üçün əsasən də Üzeyir bəyin heykəlinin birə bir nüsxəsinin yenidən ucaldılması, Füzuli Beynəlxalq Havalimanının açılışı və bu möhtəşəm məkana "Qarabağ" adı verilmiş nəhəng sərnişin təyyarəsinin ilk uçuşu, əminliklə deyə bilərəm ki, hər bir azərbaycanlıya inanılmaz sevinc hissi yaşadır. Bu kimi və bir çox digər uğuruların ətrafında Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevin çıxışlarına rast gəldim və həqiqətən məyus oldum! Bu insan öz çıxışları ilə ölkəmizi, dövlətimizin əldə etdiyi bütün nəaliyyətlərini kölgə altına salmağa çalışır. Böyük təəssüf hissi ilə bir çox çıxışlarını dinlədim. Əli Əliyevin əsl məqsədi nədir, kimi sevindirməyə çalışır, niyə "düz oturub əyri danışır"?!





***Fuad Ibrahimov Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestrinin dirijoru***

İnanıram ki, vətənini sevən insan bu qədər həzz alaraq yaxşıya yaman deməz, hər şeyi pis yozmağa çalışmaz, görülən işlərə qulp qoşmaz! yap.org.az

# "Davranışlar Azərbaycanın istədiyi şəkildə olmalıdır və olacaqdır"

**Rusiya hərbi kontingentinin Qarabağdakı addımlarını həmin hərbi kontingentin komandiri yox, Kreml müəyyənləşdirir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib. Millət vəkili vurğulayıb ki, ona görə də oradakı hərbi kontingentin rəhbərinin dəyişməsi bütövlükdə Rusiya hərbçilərinin davranışının dəyişəcəyi anlamına gəlmir.**



"Açığını deyim ki, mən oradakı hərbi kontingentə hərhansı bir qafqazlının rəhbərlik etməsindənsə, Rusiyanın digər regionlarının təmsilçilərinin rəhbərlik etmələrini bizim maraqlarımız baxımından daha üstün tuturam. Detallara varmadan deyim ki, çünki, həmin rəhbərlikdə kim olursaolsun o istər-istəməz aldığı əmri yerinə yetirməlidir. O ki qaldı oradakı sülhməramlı adı altında fəaliyyət göstərən hərbi kontingentin gələcək davranışlarına, bu davranışlar bütün hallarda Azərbaycanın istədiyi şəkildə olmalıdır və olacaqdır. Bunun üçün Azərbaycan gərəkən bütün addımları atır, açıq şəkildə nota ilə etirazını bildirir, xəbərdarlıqlar edir və sadəcə xəbərdarlıqla kifayətlənmir. Bu yaxınlarda Şuşadakı mövqelərimizi atəşə tutan o seperatçı ünsürləri zərərsizləşdirdiyi kimi zərərsizləşdirir, digər geosiyasi addımlar atır. Siz fikir versəniz, son bir həftədə Azərbaycan qardaş Türkiyə ilə havada, quruda və suda intensiv təlimlər keçirir. Bizim başqa bir qardaş dövlət, Pakistanla, Pakistanın xüsusi təyinatlı qüvvələri ilə birgə başlatdığımız üç qardaş beynəlxalq təlimi də elə-belə deyil və geosiyasi anlam daşıyan təlimdir. Bu təlimlər o deməkdir ki, heç kim heç nəyə ümid etməsin, Qarabağ Azərbaycan torpağıdır və Qarabağdakı bütün proseslər ancaq və ancaq Azərbaycanın istəkləri çərçivəsində baş verəcək, Azərbaycan torpaqlarında da, torpaqları işğal altında olan bir sıra keçmiş SSRİ Respublikalarında olan torpaqlarda olduğu kimi Respublika oyunu oynamaq mümkünsüzdür. Bunu biz 44 günlük savaş zamanı da göstərdik, bunu biz hazırda diplomatik və siyasi müstəvidə atdığımız addımlarda da göstəririk. Az öncə vurğuladığım kimi, təlimlərin keçirilməsi çox tez bir zamanda, dünya səviyyəsində götürdükdə belə rekord bir zamanda adətən bu cür qlobal tikintiləri biz Çində görürük ki, çox sürətlə yerinə yetirilir. Fizuli hava limanının tikilib istifadəyə verilməsini nəzərdə tuturam. Bax bu cür addımlarla yolların çox intensiv şəkildə çəkilməsi ilə, elektrikləşmə ilə, ümumiyyətlə, işğaldan azad olunan rayonlarda atılan bütün addımlarla, quruculuq addımları ilə bunu göstəririk və göstərəcəyik də. Yəni biz Qarabağda öz oyununu oynamaq istəyənlərə çox ustalıqla, çox səbrlə, çox düşünülmüş şəkildə gərəkən bütün cavabları veririk, verəcəyik də", deyə Sahib Alıyev bildirib.

***İnam Hacıyev***

# DİQQƏT: Azərbaycanda hibrid təhsil sisteminə keçid olacaq?

**EKSPERT AÇIQLADI**

"Deməli, Azərbaycanda hibrid təhsil sisteminə keçid hal-hazırki dövrdə mümkün də görünür. Amma yaxşı olar ki, dərslər ənənəvi qaydada başlanılsın. Çünki, ənənəvi qaydada başlamağı ilə bağlı heç hansı bir manеə yoxdur. Əgər kimsə gündəlik yoluxma faktını işıqlandırırsa, qabardırsa bu da düşünürəm ki, yersiz bir düşüncədir". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib. Onun sözlərinə görə, vaksinasiya getdiyi dövr ərzində, təhsil müəssisələrində istər müəllim heyəti, istər texniki işçilər, ümumiyyətlə, təhsilə aid olan şəxslərin vaksinasiya olunması, üstəgəl əhalinin demək olar ki, 4 milyon yarıma qədəri 1-ci doza vaksini qəbul etməsi, 3 milyon nəfəri təxminən hər iki dozanı qəbul etməsi ümumi hardasa gələcəyə nikbin bir baxış sərgiləyir: "Ona görə də düşünürəm ki, dərslər ənənəvi qaydada başlanılsa daha məqsədəuyğun hesab oluna bilər. Sadəcə olaraq, bu prosesi mərhələli şəkildə həyata keçirmək mümkündür, yəni, ilk olaraq, ibtidai siniflər üzrə dərslər ənənəvi qaydada başlanılmalıdır. Ondan sonrakı mərhələdə təxminən bir həftə, 10 gün sonra 5-9-cu siniflər üçün ənənəvi qaydada, ondan sonra isə 10-11-ci siniflər üçün ənənəvi qaydada başlanılmalıdır. Ali təhsil müəssisələrində isə 1-ci kurslar üçün ənənəvi qaydada başlatmaq mümkündür. Ondan sonrakı mərhələdə isə təbii ki, yuxarı kursları da ən azı oktyabr ayının 15-nə qədər ənənəvi qaydada başlatmaq mümkündür. Amma hibrid təhsil kifayət qədər əlverişli təhsil forması deyil. Ona görə də dərslər ənənəvi qaydada bərpa olunmalıdır".

***Ayşən Vəli***



# “Artsax”ın gorbagor olmuş statusu







**Qaragünlü Ermənistanın gününü göy əskiyə bükən hadisələr biri-birini əvəz etməkdədir. Hakimiyyətsizliyin idarəolunmaz hala saldığı, ağızın dediyini qulağın eşitmədiyi oyuncaq ölkədə hamının özünü söz sahibi hesab etməsi, siyasi partiyalar arasında qarşıdurmaların güclənməsi Bağdadın kor xəlifəsinin iddialarına bənzəyir. İqtisadi böhranın qarşısıalınmaz həddə çatdığı ölkədə sosial problemləri həll etmək üçün maliyyə imkanlarının olmaması baş nazir Nikol Paşinyanı çoxsaylı suallar qarşısında qoyub. O sualları həll etmək gücündə olmayan baş nazir yenə də yalan vədlərlə əhalini aldatmağa çalışır.**

Hələ də Ermənistanın məğlubiyyətini qəbul etmək istəməyən Nikolun tarixə atılmış “Dağlıq Qarabağın müstəqilliyi” ilə bağlı proqnozları da işə yaramadı. Xankəndidəki separatçı-terrorçu rejimin qondarma “müstəqillik günü” keçirmək” təşəbbüsləri də baş tutmadı. 1991-ci ilin 2 sentyabr tarixində Qarabağdakı erməni separatçıları qanunsuz “referendum”” keçirərək, muxtar vilayətin Azərbaycandan ayrılması ilə bağlı qəbul etdikləri qərarın 30 illik yubileyini qeyd etmək sevincləri içlərini qaraltdı. “Yubiley oyunu” ilə “Qarabağ münaqişəsi bitməyib” görüntüsü yaratmağa çalışan ermənilər yaxşı bilirdilər ki, onların dili ilə deyilsə “Artsax” artıq xəyali məfhumdur. Separatçıların “müstəqillik” istəkləri əbədi məhvə məhkumdur. Tədbirə qatılacağı gözlənilən sabiq prezidentlərin-Robert Koçaryanın və Serj Sarkisyanın “artsax”a gəlməmələri Rusiya sülhməramlılarının arxasında gizlənən separatçıları məyus etdi. İlk dəfə olaraq Ermənistan rəhbərliyi guya “problem yaratmamaq üçün” “yubiley tədbiri”ni ölü ruhla qeyd etdilər. Yaranan vəziyyət üçün hakimiyyəti tənqid edənləri sakitləşdirən Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri V. Xaçaturyanın etirazçılara cavabı belə oldu: “Deməli, belə lazımdır. Bunun üçün siyasi qərar qəbul edilib. Bu cür addım atmaq zəruridir. Başqa heç nə axtarmayın.” Separatçıların təşkil etdikləri saxta yubileylərə qatılan deputatların Xankəndidə döyülməsi, Ermənistan hakimiyyətini ölən əsgərlərin qatili adlandırılması İrəvanı silkələyib.

Prezident Armen Sarkisyana, baş nazir Nikol Paşinyana, spiker Alen Simonyana ünvanlanan “Artsax” günü” deyirsiniz? Bəs belə bir gün keçirmək üçün nə etdiniz? Baxın, indi orada Azərbaycan nələr edir. Baxın və utanın! Müasir yollar çəkilir, infrastruktur bərpa edilir. Bəs bizim hökumətimiz 30 il ərzində “artsax”” üçün nə edib? İrəvan bu üç onillikdə Qarabağda bir iş də görə bilməyib. Bir dövlət də “dqr””i rəsmən tanımadı. Və ümumiyyətlə, Ermənistan orada heç bir şey tikmədi, ancaq taladı, dağıtdı” sözləri ilə Ermənistan hakimiyyətini tənqid edən erməni siyasi icmalçı Xaçatur Xaçatryanın sözləri “dəlidən doğru xəbər” effekti yaradır.

Ermənistanın mif üzərində formalaşan hakimiyyətinin puçluğunu 44 gün davam edən İkinci Qarabağ müharibəsindəki Zəfəri ilə sübuta yetirən Azərbaycan Füzuli Beynəlxalq Aeroportu sayəsində Qarabağın dünya dövlətləri ilə hava əlaqəsini yaradır. Tamamlanmaq üzrə olan Zəfər yolu Qələbəmizin bələdçisi kimi rayonları birləşdirir. Şuşaya gəlmək istəyən yerli sakinlərin, xarici turistlərin rahat gediş-dəlişi üçün yol-nəqliyyat infrastrukturu təkmilləşdirilir. Dünyada ilk təcrübə olaraq Laçın kimi yüksək dağlıq ərazidə aeroportun inşasına başlanılıb. Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanın qətiyyəti isə daha çox diqqəti cəlb edir. İşğaldan azad edilmiş torpaqlarda bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur. Prezident İlham Əliyevin imzaladığı Fərmana uyğun yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları Ermənistanın revanşistlərini əsəbləşdirir. İşğaldan azad olunmuş ərazilərdə quruculuq-abadlıq işləri sürətləndirilir, genişmiqyaslı layihələri icra etmək üçün bacarıqlı kadr potensialı formalaşdırılır. “Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur” deyən Prezident İlham Əliyevin söylədiyi kimi, İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Müharibəni müharibə qanunları ilə aparan Azərbaycan Ermənistandan fərqli olaraq hərbi cinayətlər törətmədi, etnik təmizləmə aparmadı. Azərbaycan artıq tarixi ədaləti bərpa edir. “XX əsrin 20-ci illərində xalqımıza iki böyük zərbə vuruldu. Birincisi, 1920-ci ildə. O vaxt sovet hakimiyyəti bizim tarixi torpağımız olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana birləşdirdi. Ondan sonra o bölgədə







azərbaycanlılar deportasiyaya məruz qaldılar. İkinci isə 1923-cü ildə bizim ərazimizdə süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti, hansı ki, bunun yaradılmasının heç bir əsası yox idi. Nə tarixi əsası var idi, nə coğrafi əsası var idi, nə də iqtisadi əsası var idi” söyləyən Prezident, Müzəfər Ali Baş Komandan İlham Əliyev bildirir ki, imperiyanın havadarlığı ilə faktiki olaraq Azərbaycandan qoparılan Qarabağ artıq öz sahibinə qaytarılır.

“Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair Fərman imzalandı, tarixi ədalət bərpa edildi” sözləri ilə qüdrətli Azərbaycanla müqayisədə Ermənistanda yaranan hakimiyyətsizliyi, erməni faşizminin, mahiyyətinin hələ də işğalçı dövlətdə hökm sürdüyünü bu xalqın faciəsi adlandıran Prezident İlham Əliyev bildirir ki, əsas hədəfimiz və məqsədimiz olan Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, Azərbaycanı Türkiyə ilə birləşdirəcək Zəngəzur dəmir və avtomobil yollarının bərpası tarixi missiya olmaqla Qələbəmizi şərtləndirdi. Belə ki, “artsax” iştahasında olanlar imzalanan üçtərəfli Bəyanatı və Prezident İlham Əliyevin bu sözlərini xatırlasınlar: “Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Bəs mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar. Dedilər ki, yox, bu, “müstəqil dövlətdir.” Uzun illər bunlar “müstəqil dövlət”” kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəmlə də yoxdur, Paşinyan... Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm olmayacaq.”

***Xuraman İsmayılqızı***

TƏRS BAXIŞ+ÖZƏL

# Qaraqışqırıq salanlar bu suallara cavab versinlər!

**"Xankəndi və s. niyə hələ də bizdə deyil" bağırıb dövlətin Qarabağ istiqamətində apardığı məqsədyönlü (!!!) siyasətə qarışıb, xainliklərini daha da açığa çıxarmasınlar"**

Niyə Azərbaycan ölkənin hərbi büdcəsini artırıb və Silahlı Qüvvələrinin şəxsi heyətinin sayının çoxaldılacağı barədə elan edib, halbuki erməni ordusu öz mövcudluğunu demək olar ki, itirib, son 8 ayda ölkəni 122 min əhali tərk edib (?).

Niyə Bakı məhz sülhməramlıların nəzarət etdikləri əraziləri mühasirəyə alıb, yəni ancaq sülhməramlıları, erməniləri deyil, çünki "erməni ordusu", "erməni







silahlı birləşmələri" və s. Azərbaycan üçün artıq "sıfır" hesabındadır (?).

Niyə yeni tikilməkdə olan aviabazalar ikili təyinatlıdır, çünki açıq-aydın görünür ki, Füzuli ilə yanaşı, Laçına və Zəngilana uçan təyyarələr proporsiya baxımından daha çox hərbi məqsədli olacaq (?).



### Bu sualların cavablarını verə bilərlərmi?

Niyə Azərbaycan əvvəllcə türk qardaşları ilə hərbi təlimlər keçirir, sonra isə türklərlə yanaşı, pakistanlı qardaşlarla da birgə hərbi təlimlər, döyüş hazırlığı məşqləri keçiriləcək, özü də məhz harada? - Bəli, Laçında (?). Niyə məhz orada və başqa yerdə deyil? Və niyə Bakı sülhməramlılar barədə danışarkən onların Azərbaycan ərazilərində məhz müvəqqəti yerləşdirildiklərini bəyan edir, üstəlik mandantın verilməsi məsələsində də vaxtı uzadır?

### Sonda, niyə İsraildən bizə fasiləzsiz olaraq ağır yük-nəqliyyat təyyarələri uçur? Maraqlı suallardır deyilmi?

Bu gün "ah-vay" edib Azərbaycanın Qarabağ zəfərinə kölgə salmaq istəyən pessimistlər, yaxud pessimizm adı altında yaxa-başlarını, üz-gözlərini cıran, bəlli yerlərə satılan sözdə "müxalifətçi" toplumlar, bu sualların cavablarını verə bilərlərmi? Buyursunlar əsaslı faktlara söykənən sualları cavablandırsınlar, cavablandıra bilmirlərsə, onda sürüşsünlər öz yerlərinə və yerlərincə öz axmaq addımlarını saymağa davam etsinlər. Ya da cavab versinlər bu suallara..!

### Yoxsa bu ölkədə sizdən artıq vətənpərvər yoxdur?

Davam edirik, niyə Müzəffər Ali Baş Komandanımız "Şərqi Zəngəzur da, Qərbi Zəngəzur da, İrəvan da Azərbaycanın tarixi torpaqlarıdır və biz onlara qayıdırıq" bəyanatını verəndə Onun bu bəyanatını bir kənara qoyub, Xankəndi və ətrafındakı beş-üç kəndə görə boğazınızı yırtırsınız? Niyə anlamırsınız ki, sərhədlərimiz sülhə məcburetmə yolu ilə demarkasiya və delimitasiya olunduqdan sonra Xankəndi və s. ərazilərimiz də mexaniki olaraq Azərbaycan sərhədlərinin daxili hüdudlarında qalacaq? Bu qədərmi axmaq və sərsəmsiniz ki, hələ də düşmən dəyirmanına su tökməklə məşğulsunuz? Yoxsa bu ölkədə sizdən artıq vətənpərvər yoxdur? Bəs bu əməllərinizin cavabını nə vaxt verəcəksiniz? Bu sualın cavabını elə özüm verəcəm, Xankəndi alınandan sonra, özü də tezliklə!

Azərbaycan dövləti, Ali Baş Komandanı nəyi necə nə vaxt edəcəyini əvvəldən demişdi və bu gün də deyir, ona görə də hər yerindən duran özünü "intellektual siyasətçi, politoloq" kimi zorla gözlərə dürtüb araqarışdıranlıqla məşğul olmasınlar - "Xankəndi və s. niyə hələ də bizdə deyil" bağırıb dövlətin Qarabağ istiqamətində apardığı məqsədyönlü (!!!) siyasətə qarışıb, xainliklərini daha da açığa çıxarmasınlar - bu qədər!

*Rövşən RƏSULOV*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## "Status" müzakirə olnmur, dəqiqləşdirilmir, cəhənnəmə göndərilir!

**İrəvan Bakıdan danışıqların ATƏT-in Minsk qrupu çərçivəsində bərpa olunmasını israrla tələb edirsə, üstəlik "artsaxın statusunun müəyyən olunmasını" da iddia kimi ortaya çıxarırsa onda kəsə bir sual yaranır: hörmətsiz qonşular, əgər sizlər uzun illərdir: "artsaxın müstəqilliyi" müzakirə olunmur, "artsax xalqı öz müqəddəratını təyin edib" tipli srsəm düşüncələrinizlə "dövlət quruluşunun baş tutduğunu" bəyan edirsinizsə bu zaman Azərbaycan və onun qərarı nəyinizə lazımdır? Əgər bundan sonra normal insan şəraitində yaşaya biləcəksinizsə yaşayın görək necə yaşayacaqsınız!**

Lakin başqa tərəfdən alt şüurlarınız diktə edir ki, nəyin bahasına olursa-olsun, o torpaqlar (hazırda rus sülhməramlılarının nəzarətləri altındakı ərazilər) Azərbaycanındır və yenidən Azərbaycanın "status" haqqında nə isə deməsini gözləyirsinizsə, əbəs yerədir. Prezidentimiz isə bütün koordinatları ilə "statusunuzun" haraya yollandığını bəyan edib və Bakının bundan sonra hər hansı qərar dəyişkənliyinə getməsi də mümkün olası məsələ deyil.

Görünən isə budur ki, erməni tərəfi bu vasitələrlə dünya ictimaiyyətinə öz xarab və zəhlətökən iddialarını çatdırmağa çalışırlar ki, bəs "Bakını Qarabağın "statusu" məsələsində yola gətirin". Amma düşmən hələ də qanmır ki, bu məsələ ilə bağlı sualın cavabı nə Xankəndidə, nə Moskvada, nə Parisdə, nə Vaşinqtonda, nə BMT-nin mənzil-qərargahında, nə ATƏT-də, nə NATO-da, nə KTMT-də, hətta FİFA-da, UEFA-da, və FİDE-də də deyil, bu sualın cavabı BAKIDADIR, AZƏRBAYCANDADIR!

Həmin Azərbaycanda ki, siz "artsaxlılar" 30 il boyunca hər kəsi aldadırdınız ki, onun tərkibindən ayırlaraq "müstəqil" olmusunuz. Yaxşı, bu iddianızda qalırsınıza, bəs onda bizdən nə istəyirsiniz? İddia edirsiniz ki, "müstəqilsiniz"? Yaxşı, hələ ki, öz sərsəm düşüncə və xəyallarınızla sürünməyə davam edin. Bəs onda danışıqlar nəyə gərəkdir? Öz iddialarınızın bizim tərəfimizdən təsdiq olunması üçünmü? Əgər sizlər öz doğruluğunuza inanırsınızsa, bu zaman danışıqlara da gərək qalmır, gərək olan Qarabağdakı quldur rejiminizi antiterror əməliyyatı ilə məhv etməkdir. Məhz qanuni, hüquqi statusumuzu - Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə bərpa etmək məqsədi ilə. Bax, onda heç mandatları verilməyən və İvanlar da bu məsələdə kənarda qalacaqlar, çünki onlara da Bakı tərəfindən heç bir rəsmi status verilməyib. İndi məsələ təqribən belədir - köhnə kişilər demişkən, ya nemes olun, ya da sovet!

Yəni dediyiniz "status" müzakirə olunmur və dəqiqləşdirilmir, birədəflik cəhənnəmə göndərilir.

## "Radikal müxalifətçilər xalq-iqtidar birliyinə kölgə sala bilməyəcək!" - DEPUTATDAN SƏRT REAKSİYA

"Xalqımız radikal müxalifətçiləri uzun illərdir ki, yaxşı tanıyır və onların bütün fəaliyyətinin saxtakarlıq, satqınlıq üzərində qurulması hamıya məlumdur. Onlar üçün Vətən, torpaq, dövlət məfhumu yoxdur, ancaq öz maddi maraqlarını, mənafelərini güdürlər. Heç bir siyasi dünyagörüşü olmayan, meydan və küçələrdə ətraflarına beş-on nəfər toplaşan kimi "milli qəhrəmana", "Vətən fədaisinə" çevrilən radikal müxalifət nümayəndələri özlərini "lider" adlandıraraq, bütün zəruri siyasi cəhətləri bir kənara qoyub yalnız "hakimiyyətə gələcəyik" deyib insanlara yalan vədlər verməklə daxili sabitliyi pozmağa çalışırlar". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin üzvü İlham Məmmədov deyib.

Deputatın sözlərinə görə, həmin radikal müxalifətçilərdən biri də məhz Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevdir ki, bir neçə gün öncə Jirinovskinin fikirlərinə istinad edərək, pafoslu, ağzı köpüklənə-köpüklənə etdiyi şərböhtan xarakterli çıxışları ilə bir daha sübuta yetirdi ki, onun fəlsəfəsi yalan və böhtanla təzahür olunur: "Təsadüfü deyil ki, sosial şəbəkələrin erməni seqmentində ermənilər özləri etiraf etdi ki, 30 il ərzində həm Heydər Əliyev, həm də İlham Əliyev vətənpərvər ruhlu, xalqını sevən Azərbaycan gənci yetişdirdi. Bilirsiniz niyə? Çünkü hər iki lider 30 il ərzində hər zaman qeyd etdilər ki, torpaqlarımız işğal altındadır və biz bununla barışa bilmərik. Biz öz torpaqlarımızı gec-tez işğaldan azad edəcəyik. Məhz həmin məğrur çıxışların, rasional və praqmatik daxili və xarici siyasətin bariz nümunəsidir ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olunub. Hətta ermənilərin də qəbul etdiyi həmin həqiqətləri qəbul etmək istəməyən Əli Əliyev kimi radikallar da da yaratdıqları şou xarakterli dezinformasiyaları kütləviləşdirməklə öz çirkin niyyətlərini həyata keçirməyi düşünürlər.



Əli Əliyev və onun kimi cılız, saxta düşüncəli radikallar niyə illər öncə özü kimi saxtakar rəhbərlərin məsuliyyətsizliyinə görə işğala məruz qalan torpaqlarımızın ərazi bütövlüyündən danışmır? Ancaq bu gün cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi və Azərbaycanın möhtəşəm Qələbəsinin şanlı tariximizin səhifələrinə qızıl hərflərlə həkk olunması Əli Əliyev kimi kor ünsürlərin gözünə görünmür".

İ.Məmmədov vurğulayıb ki, bəli, bunun bir cavabı var: "Axı real faktları görmək və səsləndirmək həmin qrupdan olan radikal müxalifətçilərin xarici ölkələrdən maliyyələşməsini dayandıra bilər. Ölkədə sabitliyi pozub, qarşıdurma mühiti yaradıb öz çirkin niyyətlərini həyata keçirməyə çalışan Əli kimi saxtakarlar həqiqətləri qəbul etməlidir və bilməlidirlər ki, ölkə Prezidenti cənab İlham Əliyev düşmən işğalı zamanı öz ailə üzvlərini itirmiş, özlərinin doğma yurdlarında yaşamaqla bağlı fundamental hüquqlardan məhrum edilmiş insanların taleyini unutmadan çalışıb, soydaşlarımızın 30 illik Vətən həsrətinə son vermiş Müzəffər Sərkərdəmizdir. Möhtəşəm tarixi Qələbəmizə kölgə salmaq istəyən çirkin əməlli Əli Əliyev kimi satqınlığa meyilli saxtakarlar unutmamalıdır ki, gecə-gündüz xalqının və Vətəninin gələcəyini düşünərək bütün qüvvəsini torpaqlarımızın ərazi bütövlüyü üçün səfərbər edib, bu gündə dillərdə dastan olan Dəmir Yumruq əməliyyatını həyata keçirməklə Azərbaycana son 200 ildə misli görünməyən Böyük Qələbəni yaşadan Ali Baş Komandanımız Cənab İlham Əliyev həmin uğrulu əməliyyatı həyata keçirməklə Ermənistanın məğlubedilməzlik mifini darmadağın edib, düşməni uzun illər bərpası mümkün olmayan kapitulyasiyaya uğratdı".

*Aysel Məmmədova*

# Yaxınları Əli Əliyevi ifşa etdilər

**Samirə Mirzəyeva: "Əli Əliyev biqeyrətliyi ilə şəxsiyyət olmaq istəyir"**

Mövcud reallıqlar və faktlar ondan ibarətdir ki, xalqdan ayrı düşən dağıdıcı xisləti müxalifət qrupları daim bir-biriləri ilə qarşıdurmada olublar. Məhz bunun qanunauyğun nəticəsidir ki, AXCP, Müsavat və digər partiyalardan istefalar silsilə xarakter alıb. Partiyalararası qarşıdurmalar partiyalar daxilində də yaşanmaqdadır. Acınacaqlı vəziyyət daha çox Müsavat və AXCP-də müşahidə olunsa da, ADP və "AXH" kimi qurumlarda eyni acınacaqlı istefa dalğası ilə üzləşməkdədirlər. Daxili durumun mürəkkəbliyindən, silsilə uğursuzluqlardan və sədrlərin anormal davranışları, təxribat xarakterli açıqlamaları sıravi üzvləri partiyalardan uzaqlaşmağa məcbur edir. Görünən və diqqətçəkən məqamlardan biri də odur ki, bəzi partiyalardan istefalar sədrlərin əxlaqsız davranışları ilə bağlıdır. Buna misal olaraq, AMİP-dən uzaqlaşdırıldıqdan sonra özünə "Vətəndaş və İnkişaf" Partiyası yaradıb, siyasi gündəmdə təlxəklik edən Əli Əliyevin timsalında görmək olar. Bu məxluq hər fürsətdə diqqəti özünə cəlb etmək üçün müxtəlif şoular yaradır, məzhəkələr qurur. Hərdən də başını başlara qoşub, siyasi bəyanatlarla da çıxışlar edir. Sosial şəbəkələrdə elə yalanlar-palanlar danışıb, iddialar səsləndirir ki, onun normal adam olmasına şübhə ilə yanaşmalı olursan. Ağsaqqalı Ə.Kərimlinin təlimatlarına əsasən, deyir ki, iradəli və əzmli olmalı, küçələrə çıxıb müxalifətçi olduğumuzu cəmiyyətə göstərməliyik. Hətta insanları vaksin vurdurmamağa çağırır. Adama deyən lazımdır ki, özünə nəzarət edə, ailənə sahib çıxa bilmədiyin halda böyük hədəflərdən danışmaq, iddialı çıxış etmək nə dərəcədə düzdür? Siyasi arenada və sosial şəbəkələrdə, yayılan məlumatlara, eləcə də, redaksiyamıza daxil olan məlumatlara istinadən, demək olar ki, Ə.Əliyev əxlaqsız və mənəviyyatsız müxalif partiya sədrlərindəndir. Bunu bizimlə söhbətində AMİP Siyasi Şurasının üzvü Əli Orucov da mövcud faktlarla dilə gətirdi. AMİP funksioneri bildirdi ki, Əli Əliyevin AMİP sədrliyindən və üzvlüyündən qovulmasının səbəblərindən birini - onun keçmiş həyat yoldaşının AMİP lideri Etibar Məmmədova ünvanladığı müraciəti olub: "İllərlə əsl sifətini gizlədən bu adama AMİP-də mühüm postlar həvalə olunub. Həqiqət budur ki, 2005-ci ildə AMİP sədri vəzifəsinə seçiləndən sonra partiyanı öz şəxsi məqsədləri üçün istifadə etməyə cəhd göstərdiyinə, pozuculuq fəaliyyətinə və indiyədək açıqlanmayan məişət əxlaqsızlığı və mənəviyyatsızlığı səbəbindən, 8 yanvar 2006-ci il tarixdə partiyanın Mərkəzi Şurasının yekdil qərarı ilə sədrlikdən və üzvlükdən qovulub. Mənəvi rəhbərinə, təmsil olunduğu partiyaya qarşı xəyanət yolu seçən, övladlarından imtina edən birisinin hər nədən danışırsa-danışsın, əxlaqdan danışmağa haqqı çatmır".



*Əli Orucov: "Əli Əliyevin AMİP sədrliyindən və üzvlüyündən qovulmasının səbəblərindən biri də, onun keçmiş həyat yoldaşının AMİP lideri Etibar Məmmədova ünvanladığı müraciət olub"*

Ə.Orucov bildirdi ki, Ə.Əliyev üçün müqəddəslik deyilən heç bir məfhum yoxdur: "Gündəmdə olduğunu göstərərək, özünü kimlərəsə ucuz qiymətə təklif edən bu siyasi kloun, şəxsiyyətlərin nüfuzuna hər hansı bir kölgə salmağa cəhdlə xal qazanmağa çalışır. Amma yaxşı bilir ki, ləkəli reputasiya ilə çox da uzağa gedə bilməz".

**"Əli Əliyev televizorda əxlaqdan danışır, özü isə əxlaqsızdır"**

Ə.Orucov "VİP" sədri Ə.Əliyevin uşaqlarını ataraq keçmiş həyat yoldaşı Samirə Mirzəyevanın rəfiqəsi ilə ailə qurmasından danışaraq, qeyd etdi ki, bu cür hal iddialı şəxsə ancaq başıaşağılıq gətirə bilər. Ə.Orucov Ə.Əliyevin əxlaqsızın biri olduğuna sübut olaraq, bizə onun keçmiş həyat yoldaşı Mirzəyeva Samirə Kərim qızının yazdığı məktubu təqdim etdi. Məktub başdan-ayağa Ə.Əliyevin ittiham və təhqiri üzərində qurulub. "Səs" qəzeti olaraq, biz bəzi etik qaydaları aşmamaq şərti ilə Mirzəyeva Samirə Kərim qızının Ə.Əliyevin ünvanına səsləndirdiyi ittihamları qeyd edirik. Məktubda bildirlir ki, o, 1996-cı ildən Əliyev Əli Nadir oğlu ilə ailə həyatı qurub: "20 iyun 1997-ci ildə oğlumuz anadan olub. 2001-ci ildən mənim ərim Əli rəfiqəm ilə - ailəli bir qadınla gizlin görüşməyə başladı, bu əxlaqsızlığı onun həyat yoldaşı aşkar edib. Biz həm rəfiqə, həm ailəvi dost idik, həm də otuz ilin qonşusu idik. O qadın Əliyeva Dilarə Kamil qızıdır. Dilarə birinci ərindən 10 yaşında olan oğlunu - Cəfərov Kamran Səftər oğlunu valideynlərinin üstünə atıb, oğlundan imtina edib. Dilarə ərim Əli ilə qoşulub qaçdı, ailə həyatı qurdu, Ərim Əli üç uşağı üstümə atdı. Əxlaqsız yoldaşım bu əxlaqsız qadına qoşulandan sonra öz uşaqlarından imtina etdi. Üç yaşına çatan uşaqların, ata olan bəndə, heç üzünü belə görməyib. Uşaqları ata üzünə, ata məhəbbətinə həsrət qoyub. Mən ana kimi üç oğlumla fəxr edirəm, dövlət üçün üç əsgər böyüdürəm. Əli Əliyev "siyasət adamı" olsa da, televizorda əxlaqdan danışır, özü isə əxlaqsızdır. Qonşusunun evini yıxıb, arvadını əlindən alıb, onun oğlunu anasız, öz övladlarını isə atasız qoydu. İndi həmin Əli Əliyev AMİP sədri - millət vəkili olmaq eşqinə düşüb. Seçki platformasında yazıb ki, bir oğlum var, bir qızım. Faktiki olaraq, birgə nikahdan üç oğlan uşağımız var, bir qız isə Dilarədəndir. Uşaqlarının üzünü görməyən, maddi cəhətdən kömək etməyən ata hələ də millət vəkili olmaq istəyir. Əli Əliyev öz uşaqlarına vəkillik eləmir, Azərbaycan xalqına necə vəkillik edə bilər? Əxlaqsız, vicdansız, siyasətçi...".

Son olaraq, Samirə Mirzəyeva bildirir ki, Əli Əliyev biqeyrətliyi ilə şəxsiyyət olmaq istəyir. Biz isə, onu ələvə edə bilərik ki, Ə.Əliyevin nə olacağını demək çətin olsa da, yalnız o bəllidir ki, o, heç zaman ciddi siyasət adamı, partiya sədri ola bilməyəcək. Olsa-olsa, o, ancaq xarici məkrli qüvvələrin əlaltı rolunda çıxış edən AXCP sədri Ə.Kərimlinin yedəyində sürünən məxluq ola bilər.

**İ.ƏLİYEV**

## Metroda COVID pasportu tələb olunur?



**İctimai nəqliyyatda - avtobuslarda, metrostansiyalarda COVID-19 pasportu ilə bağlı hansısa məhdudiyyət yoxdur, sərnişinlərdən yalnız tibbi maskadan istifadə etmək tələb olunur.**

SİA-nın məlumatına görə, bunu açıqlamasında Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib. Onun sözlərinə görə, polis tərəfindən ictimai nəqliyyatda - avtobuslarda, metrostansiyalarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maskalardan) istifadə etməyən şəxslərlə profilaktik söhbətlər aparılır, əsassız bəhanələr gətirən şəxslərə koronavirus infeksiyasının fəsadları və mövcud sanitar-gigiyenik tələblər izah olunur: "Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş koronavirusun profilaktikasına dair metodiki göstərişlərə əməl etməyən şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsilə inzibati tənbeh tədbiri tətbiq olunur.

İctimai nəqliyyatda - avtobuslarda, metrostansiyalarda COVID-19 pasportu ilə bağlı hansısa məhdudiyyət yoxdur, sərnişinlərdən yalnız tibbi maskadan istifadə etmək tələb olunur. Hərəkət iştirakçılarından, sərnişinlərdən, sürücülərdən bir daha xahiş edirik ki, koronovirusun daha da çox yayılmasına imkan verməmək üçün krantin rejimi qaydalarına əməl etsinlər, özlərinin və digər şəxslərin sağlamlıqlarına biganə yanaşmasınlar".

## Hamiləlikdə lazer epilyasiya olar?

"Lazer işıq enerjisi istifadə olunan bir üsuldur. Ortaya çıxan elektromaqnit dalğalar rentgendə istifadə olunan X şüalarından fərqlidir və toxuma içərisində irəliləmə xüsusiyyəti yoxdur". Bu sözləri SİA-ya açıqlamasında cərrah, mama-ginekoloq Ləman Əliyeva deyib. Onun sözlərinə görə, işıq sadəcə prosedura edildiyi saheyə, məsələn üzə təsir edir və təsir sahəsi sadəcə bir neçə millimetrdir: "Buna bənzər radio dalğaları ilə çalışan epilyasiya sistemlərində də döl ilə əlaqəli bir bilinən risk yoxdur. Bu cihazlar x şüaları ilə çalışan rentgen cihazlarına görə çox aşağı frekans və enerjidə radiasiya ilə çalışmaqdadır".

Həkim sözlərinə belə davam edib: "Bundan daha önəmlisi isə ionizeedici xüsusiyyətinin olmamasıdır. Prosedura bitdikdə ortada radiasiya da qalmaz. Bu səbəblə də hamiləlikdə istifadəsi ilə əlaqədar risk yoxdur".




**Ayşən Vəli**



## "Əli Əliyev keçmişindən utanmır"- Komitə sədrinin sərt reaksiyası

Son günlər həyata keçirilən islahatlara, müharibədə qazanılan qələbələrə, xalqımızın birliyinə kölgə salmağa çalışan, dövlət məmurlarının, Yeni Azərbaycan Partiyasının üzvlərinin, deputatların, vəzifəli şəxslərin ünvanına təhqir və tənqid dolu ifadələr işlətməklə gündəmə gəlmək istəyən Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev görəsən keçmişinə nəzər salıb güzgüdə özünə baxırmı və keçdiyi ləkəli yoldan, uyğunsuz hərəkətlərindən və söylədiyi ifadələrdən utanırmı? Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə qeyd edib ki, əlbəttə, Əli Əliyev dününinə baxmır və utanmır, çünki onda bu hislər yoxdur.

"Kiminsə bir nöqsanını ümumiləşdirib dövlətin və xalqın adına yazmaq, deputatları, məmurları, yaxşıları hamılıqla yaltaq, savadsız, ikiüzlü, qorxaq, oğru kimi qələmə vermək, bir çox məsələlərdə ermənipərəst mövqedən çıxış etmək xəyanətdir. Özünü siyasi xadim kimi təqdim edən bir insan üçün başqalarının şəxsiyyətini alçaltmaq tərbiyəsizlik deyilmi? Əli Əliyev nə üçün özünü hamıdan ağıllı, uzaqgörən, ləyaqətli, savadlı, əxlaqlı hesab edir və bu keyfiyyətlər ona doğrudanmı məxsusdur? Sözsüz ki, belə deyil. Başqalarını yox, özümün və onun keçdiyi yola qısa nəzər salmağı lazım bilərdim. Mən elə də böyük imkanlara malik olmayan ailənin övladıyam. İki ali təhsilim var, aliməm, otuza yaxın kitabın müəllifiyəm. Əmək fəaliyyətinə fəhlə kimi başlamışam, jurnalist kimi çalışmışam və əlli ildən çoxdur ki, müxtəlif sahələrdə fəaliyyət göstərirəm, 27 ildən çoxdur YAP-ın üzvüyəm və bu partiyaya sadiqəm. Beş çağırış Milli Məclisin deputatıyam, əmək haqqım da yaxşıdır. Ancaq nə bahalı maşınım, nə evim, nə də bağım var. Bu, mənim qısa tərcümeyi halımdır. Amma özünü xalqın cəfakeşi, şöhtərli siyasətçi, lider kimi adlandıran Əli Əliyevin əmək fəaliyyəti, işi haqqında səy göstərsəm də heç kimdən dəqiq məlumat ala bilmədim. Lakin, onu öyrəndim ki, o üç partiya dəyişib. Üzv olduğu partiyalardan, Xalq Cəbhəsi və Milli İstiqlal Partiyalarından xəyanətkarlığına görə qovulubdur. O, biologiya müəllimidir, keçmişi də qaranlıqdır və əxlaqsızlıq edib öz dostunun həyat yoldaşının rəfiqəsini götürüb qaçıbdır. Hətta 2005-ci ildə Milli Məclisə seçilmək istəyərkən üç övladından ikisinin adını da gizlədibdir. O, övladlarını çöllərə salıbdır. Onun özünün bahalı maşını, evi, başqalarından fərqli geyimləri var. Bir də onun qoyduğu ləkəli izlər və xəyanətkar ləqəbi ona məxsusdur. Hələ keçmiş həyat yoldaşı Samirə Mirzəyevanın və bir çox siyasi həmfikirlərinin onun haqqında söylədikləri insana yaraşmayan alçaldıcı, təhqiramiz, insana yaraşmayan ifadələri demirəm. Bu mənim əxlaqıma ziddir. Göründüyü kimi, Əli Əliyevin bizdən yalnız və yalnız yaramaz hərəkətləri, silahdaşlarına, qonşusuna qarşı xəyanəti, yalan və şantajı artıqdır. Belə olan halda kim Əli Əliyevə məni və başqalarını təhqir etməyə səlahiyyət veribdir? Sıralarında 5-10 nəfər üzvü olan bir partiya sədrinin belə təkəbbürlü, iddialı danışmasına, hamını borclu çıxarmasına səbəb nədir? Yalan danışmaq, söyüş söymək, təhqir etmək, şərləmək, ağzı köpüklənə-köpüklənə danışmaq çıxış yolu deyil. Nöqsanı olan adamın səhvini üzünə demək və cavabını almaq lazımdır. Əli Əliyev isə tamam başqa yolu, şantaj yolunu tutub. Əgər o bununla qürrələnirsə, öyünürsə və bunu mübarizlik, vətənpərvərlik, xalqa xidmət hesab edirsə, yanılır və cəhdi əbəsdir. Çünki, Azərbaycan xalqı Əli Əliyev kimilərini dəfələrlə saf-çürük edib və sınaqdan çıxarıbdır. Heç bir yerdə işləməyən, faydalı bir əməklə məşğul olmayan, ancaq boşboş danışan, xalqın və dövlətin imicinə, yaxşı insanların adına ləkə vuran, bahalı maşınlarda gəzib yaxşı yeyib-içən, başqalarının ailəsinə göz dikən, öz balalarının taleyinə acımayan belə adamların xəyanətkar olduğu, xarici mənbələrdən qidalandığı hər bir kəsə yaxşı məlumdur. Dünyada nöqsansız və problemsiz dövlət və xalq yoxdur. Azərbaycanın ən böyük problemi, Qarabağın, torpaqlarımızın azadlığı, düşmənlərdən təmizlənməsi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə müzəffər şanlı ordumuz, cəsur xalqımız tərəfindən həll olunubsa, tarixi ədalət bərpa edilibsə, unudulmaz qələbə qazanılıbsa, deməli, xalqımız, dövlətimiz yenilməzdir, qəhrəmandır. Zəfərləri, qələbələri görməyən, qiymətləndirməyən Əli Əliyevlər, Əli Kərimlilər, Cəmil Həsənlilər isə xalqımızın cəfakeşləri yox, düşmənləridirlər, bizə qənim kəsilənlərin dəyirmanına su tökənlərdir, dövlətimizin adına ləkə yaxanlardır. Vaxt gələcək zaman onların da layiqli cavabını verəcəkdir. Çünki, havasını udub, çörəyini yedikləri torpağa xəyanət edənlər bağışlanılmırlar", deyə Tahir Rzayev bildirib.

**İnam Hacıyev**

# Ermənistanda "döyüşə qocalar gedir..."

**..Bəs, necə olmalıdır, bizlərdə buna necə deyirlər: qonşu qonşuya baxar, lazım gəlsə, lap özün oda yaxar. Amma yox, əslində bu mənə rus yazarı İvan Andreeviç Krılov "dəcəl meymun, çolaq ayı, çəp keçi" misrası ilə başlayan təmsilini xatırlatdı.**

...Beləliklə, Ermənistan hökumətinin qərarı ilə sentyabrın 15 -dən dekabrın 15 -dək ölkənin ehtiyatda olan erməni hərbi qulluqçuları üçün yeni hərbi təlimlər keçiriləcək. Təlimlərə qeydiyyatdan keçmiş əsgərlər, zabitlər və ehtiyatda olan zabitlər qatılacaqlar. Maraqlıdır ki, erməni hökuməti burada da erməniliyindən qalmayıb, lazım gələrsə, hərbi hazırlıq iştirakçılarının döyüş növbətçiliyinə cəlb ediləcəklərini də bildirir.



Ermənilərin müdafiə nazirliyi keçirilən hərbi təlimin ehtiyatda olanların yenidən hazırlanması və bacarıqlarının artırılması məqsədi güddüyünü də bildirib.

Bundan əlavə, iştirak müddətində, fərqi yoxdur, əvvəllər fərarilik edənlər də daxil olmaqla bütün çağırışçılar əsgər sayılacaq, hərbçilərin bütün üstünlüklərindən istifadə edəcəklər.

..Hələ bu harasıdır, çağırışçı ermənilərin işlədikləri iş yerlərinin saxlanmasından əlavə, onlara rotasiyaya uyğun olaraq maaş da verəcəklər. Necə deyərlər, əla demək istədim, amma...

...Yəni Siz indi deyirsiz ki, Azərbaycanla Türkiyə sualtı hücum və sualtı müdafiə qruplarının iştirak etdiyi birgə təlimməşqlər keçirə bilər, amma ermənilər durub "məlul-məlul" buna baxmalı və ya heç quruda da təlim keçirməməlidirlər? Heç elə şey ola bilməz...ruslar ermənilərə yeni silahsursatı elə-belə verməyiblər ki.. Arada ermənilər də "parta-part" salıb öz "varlıqlarını" nümayiş etdirməlidirlər axı...

İndi çağırışçı ermənilərin əksəriyyətinin dəcəl meymun, çolaq ayı, çəp keçini xatırlatsa da belə...

***Ağasəf Babayev***

# Politoloqdan açıqlama: "Ermənistan Azərbaycanla əməkdaşlıq üçün addımlar atmalıdır"



**"Son aylar Ermənistan-Azərbaycan sərhəddində, eyni zamanda Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti olaraq yerləşmiş Rusiya sülhməramlılarının nəzarət bölgəsində mövcudluğunu hələki qoruyub saxlayan Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif istiqamətli təxribatlara və atəşkəsin pozulması hallarına cəhdlər edilir. Hesab edirəm ki, bu Ermənistan və qismən Rusiya tərəfindən üzərlərinə götürülən öhdəliklərə məsuliyyətsiz yanaşmanın nəticəsidir. Çünki, 10 noyabr bəyanatı ilə tərəflərin üzərinə götürdükləri öhdəliklər kifayət qədər dəqiqliklə müəyyən edilib". Bu fikirləria SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.**

Politoloqun sözlərinə görə, hətta, arbitor rolunda çıxış edən Rusiya tərəfinin də öhdəlikləri aydın şəkildə və bu səlahiyyətlərin dəqiq çərçivələri müəyyən olunmaqla ifadə olunub: "Bu günə qədər Azərbaycanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinə baxmayaraq, təəssüf ki, Ermənistan və bəzi hallarda Rusiya tərəfi ya bu öhdəlikləri görməzdən gəlir, ya da öhdəliklərin yerinə yetirilməsinə soyuq yanaşır. Məhz, Ermənistan-Azərbaycan sərhəddində və Qarabağ bölgəsində 10 noyabr bəyannaməsinin 4-cü bəndinin tələbinə zidd olaraq hələ də Rusiya sülhməramlı qüvvələrinin regiona yerləşməsi ilə paralel şəkildə ərazidən çıxarılmalı olan Ermənistan silahlı qüvvələri tez-tez təxribatlar törədərək atəşkəsi pozmaqla regionda münaqişə görüntüsü yaratmaq, Qərb havadarlarını bölgəyə yenidən dəvət etmək və bu proseslərin tənzimlənməsində, xüsusilə də bölgədə münaqişənin qızışması prosesində iştiraka cəlb etməyə çalışırlar. Eyni zamanda həmin Qərb havadarlarına daim təziqlərə məruz qaldıqlarını, daim münaqişəyə cəlb edilən bir tərəf kimi özlərini yazıq obrazında göstərməklə onlardan yardım diləməyə çalışırlar. Beynəlxalq hüquq Azərbaycana arbitraj rolunu həyata keçirən Rusiyanın bu proseslərə soyuq yanaşmasını nəzərə alaraq erməni tərəfinin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur etmək hüququ və imkanını tanıyır".

A.Əliyev vurğulayıb ki, beynəlxalq hüquqla bu məcburetmə prosesi (proses of ko örşn) adlanır: "Hesab edirəm ki, Azərbaycan hər zaman olduğu kimi humanist davranışı bu gün də davam etdirir və qarşı tərəfdən üzərinə götürdükləri öhdəlikləri yerinə yetirməklə bağlı addımları səbrsizliklə gözləyir. Ermənistan tərəfi, Qarabağda mövcud olan seperatçılar dərk etməlidirlər ki, Azərbaycanın səbri ilə oynamaq olmaz. Azərbaycan nələrə qadir olduğunu və gücünü 44 günlük müharibə ilə Ermənistana sübut edib. Bir gün Azərbaycan təxribatlara adekvat cavab vermək məcburiyyətində qalacaq. O halda zərərçəkən yenə də erməni tərəfi olacaq. Ermənistan növbəti dəfə zərbə alacaq, böyük itkilərlə üzləşəcək. Elə itkilər ki, Ermənistanın ayağa qalxıb bir dövlət kimi mövcudluğunu qoruyub saxlaması sual altında qoyacaq. Ona görə də kütləvi psixoz problemi yaşayan erməni cəmiyyəti mövcud vəziyyəti düzgün qiymətləndirməli, regionun əsl söz sahibi olan Azərbaycanla və Azərbaycanın müttəfiqi olan Türkiyə ilə əməkdaşlığa istiqamətlənmiş addımlar atmalıdır. Bu addımların onlar üçün nə qədər əhəmiyyətli olduğunu dərk etməlidir. Ermənistan bunu dərk etməsə Azərbaycanın dəmir yumruğu növbəti dəfə qısa müddətə sülhə məcburetmə addımları ilə Ermənistanı yenidən cəzalandırmaqla proseslərin həllinə nail olacaq".

***Aysel Məmmədova***



Təhmasib Novruzov

# Bizim sosial şəbəkə mədəniyyətimiza

**Elə mövzular var ki, mətbuat meydana gələndən bu günə kimi hər zaman aktual olub və bundan sonra da aktual olaraq qalacaq. Mövzular var ki, bir vaxtlar aktual olub, ancaq bu gün üçün aktuallığını itirib. Nəhayət, elə mövzular da var ki, o barədə yeni-yeni yazmağa başlamışıq, hələ yazmağa ehtiyac da hiss olunur.**

Yeni aktual mövzu FbazarFında ən son yeniliklərdən biri və bəlkə də ən mühümü sosial şəbəkələrlə bağlıdı. Son 20-25 ilin yeniliyi olan, az müddətdə bütün dünyada yayılan və az qala hava, su qədər həyat tələbatına çevrilən sosial şəbəkələrdən dünyanın hər yerində, demək olar ki, hamı istifadə edir. Məktəb yaşlı uşaqlardan, gənclərdən tutmuş pensiyaçı qocalara qədər heç kəs indiki həyatını onsuz təsəvvür eləmir. Özlüyündə bəşəriyyətin inkişaf tarixində çox mühüm əhəmiyyət kəsb edən bu tərəqqi, heç şübhəsiz təqdirəlayiqdir və ondan kənar qalmaq faktiki mümkün deyil. Cəmiyyətlərin əksəriyyəti sivil dünyanın bu kəşfindən həm cəmiyyətin problemlərinin sürətlə aradan qaldırılmasında, həm də öz milli dəyərlərinin, milli maraqlarının beynəlxalq aləmdə təbliğində planlı, düşünülmüş şəkildə yararlanır. Təbii ki, şeytan qanından dünyaya səpələnmiş erməni və ermnikimilər daha çox özlərinə düşmən gördükləri millətləri, dövlətləri şərləməkdə, özlərini aranqutandan törəmiş ilk şüurlu məxluqlar kimi dünyaya sırımaqda, ondan-bundan oğuladıqlarını isə utanmadan ululanın (bəlkə də ulaqların) mədəniyyəti kimi tanıtmaqda istifadə edirlər. Amma bu, bir istisnadır və dünyanın mütləq əksəriyyəti sivil düşüncə daşıyıcıları olduğuna görə erməni və ermənikimilər, sadəcə özləri özlərini rüsvay edirlər.

Nə isə, mövzumuz erməni xislətini müzakirə etmək deyil və buna heç ehtiyac da yoxdu, həvəs də. Qayıdıram əsas məsələyə. Bəs biz necə? Bizlər sosial şəbəkədən necə istifadə edirik? Artıq dünyada formalaşan sosial şəbəkə mədəniyyəti bizim cəmiyyətdə hansı səviyyədədir? Əvvəlcədən deyim ki, şükürlər olsun, 10-15 il əvvəllə müqayisədə xeyli inkişaf var və bunu görməmək korluq, görüb qiymətləndirməmək isə nankorluq olar. Amma nə yazıqlar ki, bu inkişafın kölgəsində sürünə-sürünə də olsa sosial şəbəkələrdən iyrənc məqsədlər üçün istifadə edənlər, yaxud səviyyəsinə görə müxtəlif şəbəkələrdə çox cılız, milli mentalitetə yabançı, bəzən savadsız, bəzən gərəksiz çıxışları ilə ilk növbədə özünü, ümumilikdə isə milli kimliyimizi hörmətdən salanların sayı da az deyil.

Yox, oxucu elə düşünməsin ki, tik-tokla narkotika şəbəkəsi quranlardan danışıram. Bu, cinayət faktıdır və cinayətin də cəzası var, yəqin alacaqlar. Fikrimiz nə də sosial şəbəkələrdə ona-buna şər yağdıranlar, özünü hamıdan daha ağıllı bilib, cəmiyyətə Uağıl dərsiF verənlər haqqında uzun-uzadı danışıb vaxtınızı almaq deyil. Mən çox sadə, çox bəsit bir problemdən danışıram. Dediyim başqa məsələdi. Açırsan feysbuk səhifəsini. Çox az hallarda milli dəyərlərimizlə, cəmiyyətin ciddi problemləri ilə bağlı səviyyəli yazılarla rastlaşırsan. Onu da paylaşanda ya beş adam oxuyub bəyənir, ya da on beş. Di gəl bir adam bulaq başında yeyib-çidiyini fotoya köçürüb qoyur səhifəyə...Pa... UNuş olsunF, Uyerimiz məlumF, Upis gününüz belə olsunF və s. və i. Kimi UşərhFlər nə qədər yazılır? Yaxud biri iyirmi il bundan əvvəl dünyadan köçən atasının ölüm günündə bir kiçik UstatyaF yazır, neçə yüz adam Uallah rəhmət eləsinF yazır. Eyni vəziyyət övladını, nəvəsini qucağına alıb şəkil çəkdirən, sonra da onu feysbuukda yerləşdirən valideynlərin UstatyaFlarına münasibətdə də təkrarlanır. Məncə bütün bunlar bizim hələ də sosial şəbəkələrdən istifadə mədəniyyətimizin lazımi səviyyədə olmamasından irəli gəlir. Hələ hər gün səhər-səhər Usabahınız xeyirF fotosu ilə paylaşım edənləri demirəm...

Sizləri bilmirəm, amma mən yoruluram! Vallah yoruluram! Siqnal gəlir ki, feysbuukda yeni paylaşım var. Açırsan, yüz paylaşımdan 99-u yuxarıda sadaladıqlarımdandı. Nə qədər belə UdostFları UdostluğumFdan silirəm, yeniləri gəlir. Bilmirəm, bəlkə sosial şəbəkə mədəniyyətindən də bir az danışmağa ehtiyac var! Amma deməyin ki, bunu da salaq orta məktəb dərsliklərinə, orda tədris olunsun!..

# Erməni vandallığı: təcavüzə məruz qalmış tarixi dini-mədəni abidələrimiz

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan öz mədəniyyəti, dini-mədəni abidələri, irsi ilə neçə əsrlərə malik tarixini, qədimliyini təsdiqləyir. Daş kitabələrdə iz salmış nümunələrimizdə Azərbaycan xalqının tarixi kökləri öz əksini tapır. Aparılan arxeoloji qazıntılar, araşdırmalar bir daha təsdiq edir ki, Azərbaycan tarixi minillikləri əhatə edir.**



Azərbaycanın neçə əsrlərə söykənən tarixi reallıqlarına, daş yaddaşlara hopmuş həqiqətlərə kölgə salmaq, saxtalaşdırmaq mümkün deyil. İki əsrdən artıq Azərbaycana qarşı təcavüzkar siyasətini həyata keçirən Ermənistan saxta tarix yaratmaq məqsədi ilə torpaqlarımıza göz dikərək, burada olan dini, mədəni abidələrimizi, toponimlərimizi saxtalaşdıraraq “Böyük Ermənistan” yaratmaq xülyaların həyata keçirmək istəyiblər. Tarixdən məlumdur ki, Ermənistan ərazidəki türk mənşəli adların dəyişdirilməsi “Türkmənçay” sülh müqaviləsindən sonra baş vermişdir. Yüzlərlə kəndlərimizin adı dəyişdirilərək erməni soyqırımına məruz qalıb. Beləliklə, tarixin müxtəlif dönəmlərində Qızıl Bulağın adı dəyişdirilərək Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Ağbulaq-Axpurak, Acıbac-Acabac, Qovşud-Kavçut, Gabut-Kapuyt, Molla Musa-Musakan və s. adları ilə əvəzləniib, saxtalaşdırılıb. Tarixi faktlara istinad edərək qeyd edək ki, 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə saxtalaşdırıldı. Bu gün Azərbaycan artıq bu saxtakarlıqlara qarşı öz iradəsini ortaya qoyub. Saxta əməlləri həqiqətlər əvəzləyir. Azərbaycan 44 günlük Vətən müharibəsində 30 ilə yaxın zamanda erməni işğalı altında olan torpaqlarımızı azad etdi. Zəfər tariximiz yazıldı. Azərbaycan artıq işğaldan azad olunan torpaqlarımızda abadlıq-quruculuq işlərinə başlayıb. Yeni yollar salınır, beynəlxalq hava limanları tikilir, infrastruktur yenidən qurulur, eyni zamanda Azərbaycanın tarixi adları özünə qaytarılır, dini-tarixi abidələrimiz təmir və bərpa olunur. Toponimlərimiz də öz tarixi adlarına qovuşur. Belə ki, 1969-cu ilin iyun ayında Basarkeçər rayonunun adı dəyişdirilərək Vardenis qoyulmuşdur. Artıq bu ad Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə bərpa edilib. 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşanın da tarixi adı Prezident İlham Əliyev tərəfindən bərpa edildi.



Zaman həqiqətləri bərpa edir. Qısa zamanda Azərbaycan torpaqlarını işğaldan azad etdiyi kimi, toponimlərini də, tarixi-mədəniyyət abidələrini də bərpa və təmir edəcəkdir.

Bu gün işğaldan azad olunmuş Şuşa, Ağdam, Zəngilan, Cəbrayıl kimi ərazilərimizdə olan tarixi dini-mədəniyyət abidələrimiz neçə əsrlərdən soraq verir. Qarğabazar kəndində Cəlil türbəsi, Aşağı Veysəlli kəndində Mirəli türbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kən-dində məscid binası, Horadiz kəndində İmamzadə türbəsi, Aşağı Aybasandı kəndində İbrahim türbəsi və s. tarixi əhəmiyyətli abidələrimiz erməni vandalları tərəfindən məhv edilib, yararsız hala salınıbdır. İşğaldan azad olunan torpaqlarda 67 məsciddən yalnız ikisi qalmışdır.

### FÜZULİNİN TARİXİNDƏN DANIŞAN DAŞ ABİDƏLƏR

Əlbəttə ki, 30 ilə yaxın erməni işğalında olan Füzuli şəhərindəki tarixi abidələrimiz də öz orijinallığı ilə diqqəti çəkir. Qədim qalalar, qədim insan məskənləri, maddi mədəniyyət abidələri, sikkələr və s. onun tarixi şəhər olduğunu sübut edən dəlilərdir. 1993-cü ildə avqust ayının 23-ü Ermənistan silahlı qüvvələrinin rayon ərazisinə hücumu nəticəsində Füzuli şəhəri daxil olmaqla, 58 kənd işğal olunmuş və bir çox tarixi abidələrimiz də işğala məruz qalmışdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində Füzuli rayonu da işğaldan azad edildi və tarixi abidələrimiz erməni əsarətindən xilas oldu. Arxeoloji abidələrdən tunc dövrünə aid Zərgərtəpə, Şəkərçik yaşayış yerləri, eramızdan əvvəl II-I minilliklərə aid Günəştəpə və s. tarixin izini özündə yaşadan nümunələr sırasındadır. XVII-XIX əsrə aid məscidləri, XVIII-XIX əsrlərə aid körpüləri də erməni təcavüzünə məruz qalmışdır. Bu sırada paleolit dövrünə aid Azıx və Tağlar mağara düşərgələrini də qeyd etməliyik. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın ən qədim insanının yaşayış yerlərindən biri olan Azıx mağarasının Azərbaycan tarixinə məxsus, tarixi sərvətin olduğunu bildirib: “Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik. Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar”.

### “FÜZULİ VƏ İŞĞALDAN AZAD EDİLMİŞ BAŞQA TORPAQLARDA YAŞAMIŞ SAKİNLƏR

### BİLMƏLİDİRLƏR Kİ, BİZ BÜTÜN BU YERLƏRİ BƏRPA EDƏCƏYİK”

Bu şəhərdəki tikilmə tarixi hicri tarixi ilə 1307-ci ildə olan Hacı Ələkbər məscidi də öz orijinallığı ilə seçilir. Mənbələrdə qeyd olunduğu kimi, miladi təqvimi ilə tikilmə tarixi 1889-1890-cı illəri əhatə edir. Təbii ki, məcscidin belə adlandırılmasına səbəb onun Hacı Ələkbər adlı xeyriyyəçi tərəfindən inşasına vəsaitin ayırmasıdır. Füzulinin işğalı zamanı bir çox tarixi mədəniyyət abidələrimiz kimi, Hacı Ələkbər məscidi yararsız hala salınıb.

Ermənilər bütün maddi-mədəniyyət abidələrimizə qarşı təcavüzkar siyasəti həyata keçiriblər. Bütün bunlara baxmayaraq, işğaldan azad olunan bütün ərazilərimizdə, eləcə də Füzulidə olan bütün dini-mədəniyyət abidələrimiz, dağıdılmış infrastruktur yenidən qurulacaq, bərpa və təmir olunacaqdır. Azərbaycan Prezidenti İlham Əliyevin Füzuliyə səfəri zamanı dediyi fikirləri vurğulamaq yerinə düşər: “Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik”.



*Nəzakət ƏLƏDDİNQIZI*

*QEYD: Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

8 sentyabr


## Samboçularımız iki qızıl medal qazandılar!

**Rusiyanın Kazan şəhərində birinci MDB Oyunları davam edir. AZƏRTAC xəbər verir ki, dünən stend atıcılığı, stolüstü tennis, güllə atıcılığı, sambo, futzal və tayboks növlərində idmançılarımız mübarizə aparırlar.**



Samboçularımızdan Nicat Məmmədli (58 kq), Elvin Bağırov (64 kq) qızıl, Adil Adilzadə (88 kq) isə bürünc medal qazanıblar. Bununla da, Azərbaycanın qazandığı medalların sayı 29-a çatıb. Onlardan 8-i qızıl, 5-i gümüş, 14-ü bürünc medaldır.

Xatırladaq ki, sentyabrın 11-dək davam edəcək Oyunlarda Azərbaycan komandası idmanın 13 növündə təmsil olunur. Komandamız badminton (8 idmançı), basketbol (4), boks (8), cüdo (16), futzal (13), stolüstü tennis (8), stend və güllə atıcılığı (3), karate (20), kəmər güləşi (4), köreş (5), qadın güləşi (6), sambo (7), sərbəst güləş (10), yunan-Roma güləşi (9), muaytay (tayboks, 6) idman növlərində mübarizə aparır.

## Kolera epidemiyasına yoluxma artır



Qərbi Afrika ölkəsi Nigeriyada kolera epidemiyasında həyatını itirənlərin sayı 2 min 141-ə yüksəlib. SİA xarici mətbuta istinadən xəbər verir ki, ölkədə epidemiya 1 ştatdan 3 sentyabr tarixinə qədər 23 əyalətə və paytaxt Abujaya yayılıb. Bu dövrdə 65 min 145 nəfərə vəba diaqnozu qoyulub və 2 min 141 nəfər epidemiya səbəbindən ölüb. Ölkədə vəba epidemiyasının ən sıx yaşayan əyalət 10 min 343 hadisə ilə Kano, epidemiya səbəbi ilə ən çox insan itkisi olan əyalət isə 150 ??adamın həyatını itirdiyi Katsina şəhəridir. NCDC direktoru Dr. Kikve Ihekveazu, verdiyi açıqlamada, ölkədə aşkarlanan halların 26 faizinin 5-14 yaş arasında olduğunu deyib. Ihekveazu, ölkədəki epidemiyaya qarşı əyalətlərdə müxtəlif kampaniyaların başladığını bildirin və ictimaiyyəti gigiyenaya daha çox əhəmiyyət verməyə çağırıb.

***Turqay Musayev***

## Lamiyə Vəliyeva: Tokio Paralimpiadasındakı uğurlu çıxışımı “Paris-2024”də də davam etdirəcəyəm

“Tokio-2020” XVI Yay Paralimpiya Oyunlarında Azərbaycanı layiqincə təmsil etməyimlə qürur duyuram. AZƏRTAC xəbər verir ki, bunu Paralimpiya çempionu Lamiyə Vəliyeva sentyabrın 7-də “Tokio-2020” XVI Yay Paralimpiya Oyunlarında uğurla çıxış edən milli komandamızın üzvlərinin sonuncu qrupunun qarşılanması mərasimində jurnalistlərə müsahibəsində deyib.



Paralimpiya çempionu deyib: “Yarışa gedərkən özümə verdiyim sözü yerinə yetirdiyim üçün çox şadam. Məni dəstəklədiyinə görə Azərbaycan xalqına minnətdarlığımı bildirirəm. Söz verirəm ki, bu uğuru “Paris-2024”də də davam etdirəcəyəm”.

Xatırladaq ki, Paralimpiadada 19 medal - 14 qızıl, 1 gümüş və 4 bürünc qazanan Azərbaycan komandası ümumi sıralamada onuncu pillədə qərarlaşıb. Millimizin heyətində paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medallara sahib olublar.

Raman Salei Tokio Paralimpiadasında üç qızıl medal qazanıb. O, 100 metr məsafəyə arxası üstə, sərbəst və batterflay üsulu ilə üzmə yarışların da Paralimpiya çempionu olub. Digər üzgüçümüz Vəli İsrafilov isə 100 metr məsafəyə brass üsulu ilə üzmə yarışında birinci yeri tutub. Nizəatma yarışında dünya rekordu müəyyənləşdirən para-atletimiz Hamed Heydari qızıl medala sahib olub. Orxan Aslanov uzunluğa tullanma yarışında qızıl, Səid Nəcəfzadə isə bürünc mükafata layiq görülüb. Elvin Astanov nüvəitələmə yarışında birinci yeri tutublar. Para-atlet Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçış yarışında ikinci, 400 metr məsafəyə qaçışda isə birinci pillədə qərarlaşıb. Pauerliftinqçi Pərvin Məmmədov (49 kiloqram) fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

## Məşhur aktyor 24 yaşlı qızla eşq yaşayır



Son zamanlarda Türkiyənin məşhur komediya ustası Mehmət Ali Erbilin Belarusiyaya tez-tez səyahət etməsinin səbəbi üzə çıxıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Erbil, Belarusiyada yaşayan 24 yaşlı türkmənistanlı Kristina ilə eşq yaşamağa başlayıb. Qeyd edək ki, Erbilin 64 yaşı var.

***Aytac Əliyeva***

## Ən çox izlənən animasiya - MAŞA VƏ AYI

Məşhur rus cizgi filmi Maşa və Ayının “YouTube”da izlənmə sayı 10 ildə 100 milyardı keçib. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, Maşa və Ayının müxtəlif dillərdəki “YouTube”da kanalları 10 il ərzində Rusiyada və dünyada uğur qazanıb. 2015-ci ildən Türkiyədə yayımlanan və izləyicilərin sayı artmağa davam edən karikaturanın dünya macərası “Sputnik”in qalereyasındadır.



Məşhur rus cizgi filmi Maşa və Ayının “YouTube”da baxış sayı 10 ildə 100 milyardı keçib. Ən çox izlənilən çizgi serialına 4,4 milyard dəfə baxılıb. Maşa və Ayının YouTube-da ən çox izlənilən animasiya olaraq “Ginnes”in Rekorduna sahib olduğu da xatırladılır. Rus ssenarist Oleq Kuzovkov tərəfindən yaradılan və daha sonra 20 -dən çox dilə tərcümə edilən və 100 -dən çox ölkədə nəşr olunub.

Maşa və Ayı cizgi filmində mədəni və bilikli bir yaramaz qızın maceraları izah olunur. Parrot Analtiks media araşdırma şirkətinə görə, Maşa və Ayı məktəbəqədər uşaqlar üçün dünyanın ən çox tələb olunan cizgi filmidir.

***Qönçə Quliyeva***


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600